QƏLƏBƏ

İctimai-siyasi qəzet

9 fevral 2017-ci il, cümə axşamı, № 5, 6, 7, 8 (8.449)
Qəzet 1924-cü ildən çıxır

TƏSİSÇİ: SALYAN RAYON İCRA HAKİMİYYƏTİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

Ölkə iqtisadiyyatını şaxələndirmək, idxaldan asılılığı azaltmaq, ixrac potensialını və kənd təsərrüfatı məhsullarının ixracını artırmaq. Hesab edirəm ki, biz kənd təsərrüfatı məhsullarının ixracını iki dəfə artıra bilərik. Bu, real hədəfdir, biz buna nail olmağa çalışmalıyıq. Beləliklə, ölkəmizə daha çox valyuta gələcək, manat öz sabitliyini qoruyacaq, neftdən asılılıq azalacaq və iş yerləri yaradılacaq, sahibkarlıq inkişaf edəcək.

Bax, budur, bizim əsas inkişaf konsepsiyamız. Bununla bərabər, onu da qeyd etməliyəm ki, mən dəfələrlə demişəm, biz artıq postneft dövründə yaşayırıq. Bunu mən o mənada deyirəm ki, dövlət qurumları daha neft amilinə bel bağlamasınlar. Ancaq bu, o demək deyil ki, bizim neftimiz tükənir. Yox, bizim neftimiz hələ onilliklər ərzində xalqımıza xidmət edəcək. Azərbaycan qazı iki ildən sonra dünya bazarlarına daha da böyük həcmdə çıxacaq və öz əhatə dairəsini genişləndirəcək. Yəni, bu amil daim var və bu, bizə həmişə güclü bir dəstək kimi kömək edəcək. Ancaq biz işimizi elə qurmalıyıq ki, sanki bu, yoxdur. Bax, bugünkü konfransın, ümumiyyətlə, inkişafla bağlı tədbirlərimizin məqsədi bundan ibarətdir.

Nəticə olaraq, biz bunu ona görə edirik ki, insanlar daha da yaxşı yaşasınlar. Amma insanların yaxşı yaşaması təkcə maddi tərəflə ölçülmür. Burada, əlbəttə ki, məmur-vətəndaş münasibətləri xüsusi yer tutur. Mən bu məsələ ilə bağlı öz fikirlərimi dəfələrlə demişəm, bu gün də deyirəm, bunu hər kəs bilsin, eşitsin və nəticə çıxarsın. Məmurlar xalq üçün yaşayırlar, əksinə deyil. Məmur xalqın xidmətçisidir, vətəndaşa xidmət, kömək göstərməlidir, yekəxanalıq etməməlidir. Hansısa qanunsuz tələb irəli sürməməlidir. Özünü təvazökar aparmalıdır. Özü və ailə üzvləri nümunə olmalıdır. Rüşvətxorluqla, soyğunçuluqla məşğul olmamalıdır. Məmur, bax, belə olmalıdır, dediyim kimi. Mən hər bir dövlət məmurunu ya icra başçısı, ya başqa vəzifəyə təyin edəndə göstəriş verirəm ki, get insanlara qulluq et, xidmət göstər, dövlətə xidmət et, təmiz işlə. Amma əfsuslar olsun ki, bəziləri nəticə çıxarmırlar. Onların da cəzası verilir və veriləcək.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti.
"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının üçüncü ilinin yekunlarına həsr olunan konfransında yekun nitqindən.

Salyan rayonunun 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunları və 2017-ci ildə qarşıda duran vəzifələr barədə rayon İcra Hakimiyyəti başçısının HESABATI

Yanvarın 10-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2017-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasət nəticəsində Azərbaycan 2016-cı ildə uğurla inkişaf etmiş, qarşıda duran bütün vəzifələr icra edilmiş, ölkəmizin beynəlxalq nüfuzu daha da artmışdır. 2016-cı ildə dünyada və regionda təhlükələrin artdığını, qanlı müharibələrin davam etdiyini, hətta yeni münaqişə ocaqlarının yarandığını, iqtisadi inkişafla bağlı vəziyyətin də ağırlaşmasına baxmayaraq, ölkəmiz 2016-cı ildə öz inamlı inkişafını davam etdirib, təhlükəsizlik tədbirləri təmin olunub, xalqımız sülh və əmin-amanlıq şəraitində yaşamışdır.

2016-cı ilin ölkəmizin tarixində dərin iqtisadi islahatlar dövrü kimi qalması, bundan sonra da qeyri-neft sektorunun inkişafının diqqət mərkəzində olması məhz bunu sübut edir. Ölkəmiz neftlə zəngin olan digər ölkələr kimi, neftin qiymətinin aşağı düşməsindən əziyyət çəkirdi. Ancaq neft ixrac edən bütün ölkələrin addımlarına nəzər salsaq görərik ki, biz o ölkələrdənik ki, bu böhranlı vəziyyətdən də uğurla çıxa bilmişik. Neftlə zəngin olan bir neçə başqa ölkə var ki, bizim kimi bu vəziyyətdən uğurla çıxa bilmişdir. Neftin qiyməti isə 3-4 dəfə aşağı düşmüşdür.

Bu, o deməkdir ki, əsas gəlir mənbəyimiz olan neft bizə 3-4 dəfə az gəlir gətirmişdir. Bütün çətinliklərə, itkilərə baxmayaraq, respublikamız iqtisadi sabitliyi qoruya və bu böhranlı vəziyyətdən şərəflə çıxa bildi. 2016-cı ildə ölkəmizdə 100 mindən çox daimi iş yeri açılmışdır, kənd təsərrüfatının, qeyri-neft sənayesinin inkişafı imkan verir ki, biz gələcəyə nikbinliklə baxaq. 2016-cı ildə də ölkəmizdə iqtisadi inkişafla bağlı çox önəmli addımlar atılmışdır. Hər bir ölkənin inkişafı üçün əsas şərt təhlükəsizlikdir, sabitlikdir, vətəndaş həmrəyliyidir. Bu da respublikamızda vardır. Təhlükəsizlik qorunur, xalqın iradəsinə əsaslanan sabitlik, vətəndaş birliyi və həmrəylik 2016-cı ildə daha da artmışdır.

İqtisadi sahədə 2016-cı ildə önəmli addımlar atılmışdır. Baxmayaraq ki, gəlirlərimiz 3-4 dəfə aşağı düşüb, ölkəmizdə yaradılmış gözəl sərmayə iqlimi hesabına ölkəmizə 8 milyard dollar xarici investisiya cəlb edilmişdir. Bu da çox gözəl göstəricidir. Çünki bu gün bütün dünyada iqtisadi böhran yaşanır, maliyyə çətinlikləri müşahidə olunur və belə vəziyyətdə xaricdən investisiya gətirmək çox çətin məsələdir. Daxili sərmayə isə 3,7 milyard dollar olmuşdur. Əvvəlki illərlə müqayisədə bu, daha aşağı rəqəmdir. Ancaq bu, başa düşüləndir, bunun səbəbi də bəllidir. Beləliklə, ölkə iqtisadiyyatına keçən il 11 milyard 700 milyon dollar sərmayə qoyulmuşdur.

Sosial siyasətin tərkib hissəsi kimi 485 məktəb təmir olunmuş, 29 yeni məktəb, 41 tibb müəssisəsi tikilmiş və ya təmir edilmişdir. Respublikamızda sosial infrastrukturun yaradılması, ünvanlı dövlət sosial yardımının təmin edilməsi üçün çox ciddi addımlar atılmışdır. O cümlədən məcburi köçkünlərin yaşayış problemlərinin həlli istiqamətində böyük vəsait nəzərdə tutulur. Keçən il məcburi köçkünlərin problemlərinin həlli üçün yeni addımlar atılmış, yeni qəsəbələr salınmışdır. Dövlət Neft Fondunda bu məqsədlər üçün kifayət qədər vəsait nəzərdə tutulmuşdur.

Bundan əlavə, "ASAN xidmət" mərkəzlərinin sayı 11-ə çatdırılıb. İndiyə qədər bu mərkəzlərə 13 milyon müraciət daxil olmuş, göstərilən xidmətlərin sayı artırılmışdır. "ASAN Viza"nın fəaliyyətə başlaması ölkəmizə turist axınının daha da sürətlənməsinə geniş imkanlar açmışdır. 2016-cı ildə ölkəyə gələn turistlərin sayı 11 faiz artmışdır.

Hərbi potensialımızın gücləndirilməsi üçün əlavə tədbirlər görülmüşdür. Ölkəmiz müharibə şəraitində yaşayır. Bütün böhranlara, neftin qiymətinin aşağı düşməsinə baxmayaraq, ordumuz ən müasir silah-sursat, texnika ilə təmin edilmişdir. Keçən il çox önəmli addımlar atılmış, ən müasir silahlar ölkəmizə gətirilmişdir. Bu gün Azərbaycan Ordusu həm döyüş qabiliyyəti, həm təminat-təchizat baxımından dünya miqyasında güclü ordular sırasındadır.

2016-cı ilin aprelində təmas xəttində baş verən döyüşlərdə əks-hücum əməliyyatı nəticəsində ordumuz düşmənə sarsıdıcı zərbələr vurmuşdur. Növbəti erməni hərbi təxribatına cavab olaraq, ordumuz əks-hücum əməliyyatı keçirmiş və minlərlə hektar torpağı işğaldan azad etmişdir. Bu şanlı tarixi qələbəmizdir. Bu, bir daha dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərir.

Aprel döyüşləri bizim şanlı tariximizdir, böyük qələbəmizdir. Bu döyüşlər zamanı xalqımız bir daha öz birliyini nümayiş etdirmişdir. Beləliklə 2016-cı il münaqişənin həlli ilə bağlı çox önəmli il olmuşdur.

2016-cı ildə "Cənub" qaz dəhlizinin və "Şahdəniz-2" layihəsinin icrası ilə bağlı bütün addımlar atılmış, TANAP layihəsinin böyük hissəsinin icra edilməsi, Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması ilə bağlı tədbirlər görülmüşdür. Neft gəlirlərimizin üç-dörd dəfə azalmasına baxmayaraq xaricdən alınan kreditlər və eyni zamanda daxili vəsait hesabına "Cənub Qaz Dəhlizi" və "Şahdəniz-2" layihələrinin icrası ilə bağlı bütün lazımi addımlar atılmışdır.

Keçən il kənd təsərrüfatının inkişafında da uğurlu il olmuşdur. Ölkəmizdə uzun illər ərzində tənəzzülə uğrayan pambıqçılıq bərpa edilmişdir. Artıq bərpa prosesi başlayıb. Ölkəmiz pambıqçılığın şöhrətini qaytarır. Keçən il bir qədər gecikməyə baxmayaraq, yaxşı nəticələr əldə edilmişdir.

Əgər 2015-ci illə müqayisə etsək, görərik ki, 2015-ci ildə cəmi 18 min hektarda pambıq əkilmişdisə, 2016-cı ildə artıq 51 min hektarda pambıq əkilmişdir. 2015-ci ildə 35 min ton pambıq tədarük olunubsa, 2016-cı ildə təxminən 90 min tona yaxın pambıq tədarük edilmişdir.

2016-cı il heyvandarlıqla bağlı ciddi addımlar atılmışdır. İndi yeni layihələr icra edilir. Heyvandarlığın qapalı şəraitdə inkişaf etdirilməsi daha səmərəlidir. Bu ət və süd məhsulları istehsalının artmasına təkan verəcəkdir. Eyni zamanda, bu imkan verəcək ki, örüş torpaqlarının təyinatının dəyişdirilərək əkin dövriyyəsinə buraxılsın. İndi harada mümkündürsə işlər gedir və həmin torpaqlar əkinə cəlb edilməlidir.

2016-cı ildə idmançılarımız Rio Olimpiadasında tarixi nailiyyətə imza atmışdır. On səkkiz medal qazanılmış və medalların sayına görə ölkəmiz dünya miqyasında 14-cü, Avropada 7-ci, keçmiş sovet respublikaları arasında Rusiyadan sonra 2-ci və müsəlman aləmində birinci olmuşdur. Bu, bizim növbəti böyük qələbələrimizdəndir.

Ötən il sentyabrda baş tutan referendumun nəticələri məhz xalqımızın iradəsini əks etdirdiyini sübut etmişdir. Referendumu müşahidə edən beynəlxalq təşkilatların nümayəndələri bir dənə də olsun pozuntu aşkar etməmişdir. "Exit-poll"ların nəticələri rəsmi nəticələrlə üst-üstə düşmüşdür. Beynəlxalq təşkilatlar, xüsusilə Avropa Şurası referendumun keçirilməsinə çox müsbət qiymət vermiş və sonra bunu Strasburqda öz qərarı ilə təsdiqləmişdir. Referendum şəffaf, ədalətli, azad şəkildə keçirilmişdir. Bu, həm demokratiya istiqamətində növbəti addımdır, həm də onu göstərir ki, ölkəmizdə seçki prosesi böyük dərəcədə təkmilləşmişdir. Eyni zamanda, bu, xalqımız tərəfindən dövlətə verilən böyük dəstəkdir və o dəstəkdir ki, ölkə iqtisadiyyatı üçün ən ağır il olan 2016-cı ildə göstərildi.

Ötən ilin ölkəmizdə "Multikulturalizm ili" elan edilməsi, bu il çərçivəsində Bakıda bir neçə mötəbər beynəlxalq tədbirlərin keçirilməsi, Roma Papasının ölkəmizə səfəri zamanı verdiyi bəyanatlar bir daha Respublikamızın önəmini təsdiqlədi. Ölkəmiz bir daha dünyaya göstərdi ki, multikulturalizm, onun ideyaları yaşayır və yaşamalıdır.

Ölkədə infrastrukturun yaradılması, qazlaşdırılmanın aparılması, kənd yollarının tikintisi, içməli su layihələrinin icrası ilə bağlı əlavə tədbirlər görülmüşdür. Ekoloji tədbirlərin, ölkəyə turist axınının stimullaşdırılmasının, "ASAN xidmət"in coğrafiyasının və funksiyalarının genişləndirilməsinin, Ələtdəki Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisinin birinci mərhələsi tam başa çatdırılmışdır.

Bu il Ölkəmizdə IV İslam Həmrəyliyi Oyunları keçiriləcəkdir. Bu da çox önəmli beynəlxalq tədbirdir, çünki bütün müsəlman aləminin həmrəylik oyunlarına ev sahibliyi edəcəyik. Bu təkcə idman tədbiri deyil. Bu, böyük siyasi tədbirdir, bu, böyük mədəni tədbirdir, bu, böyük ictimai hadisədir. Bu, bir daha Azərbaycanı öz dəyərlərinə, İslam dəyərlərinə sadiq ölkə kimi, eyni zamanda, müasir ölkə kimi göstərəcək və bu gün İslamın geridə qalmış sivilizasiya olması barədə çirkin kompaniya aparanlara da bir cavab olacaqdır. Onlar öz imkanları hesabına həm mediada, həm ictimai fikirdə, həm müxtəlif qeyri-hökumət təşkilatları çərçivəsində rəy formalaşdırırlar ki, İslam dünya üçün təhlükədir. Onlar İslamı terrorizmlə eyniləşdirir, islamofobiyaya rəvac verir, xalqları dinə görə bölür, müsəlman qaçqınlarına qarşı hörmətsizlik edirlər.

Ardı 2-ci səhifədə

Salyan rayonunun 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunları və 2017-ci ildə qarşıda duran vəzifələr barədə rayon İcra Hakimiyyəti başçısının

HESABATI

Əvvəli 1-ci səhifədə

Bütün bunları nəzərə alaraq, cənab Prezidentimiz İlham Əliyev 2017-ci ili ölkədə "İslam Həmrəyliyi ili" elan etmişdir.

Hesabat dövründə bizim üçün ən əlamətdar hadisə sentyabr ayının 3-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rayonumuza səfəri olmuşdur. Səfər zamanı Azərbaycan Respublikasının Prezidenti Salyan şəhərinə Şirvan-Muğan magistral su kəmərindən çəkilmiş yeni içməli su xəttinin, Tarix-Diyarşünaslıq Muzeyinin, Yeni Azərbaycan Partiyası Salyan rayon təşkilatının inzibati binasının, Babazanan yaşayış massivini şəhərin mərkəzi ilə birləşdirən körpünün və Ələt-Astara-İran dövlət sərhədi avtomobil yolunun 31-54 kilometrlik hissəsinin açılışında iştirak etmiş, Kürsəngi kəndindəki pambıq sahələrinə baxış keçirmiş, pambıqçılarla görüşmüşdür.

Rayon İctimaiyyətinin nümayəndələri ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti rayonumuzun sosial-iqtisadi potensialını yüksək qiymətləndirmiş, Salyan rayonunun inkişafı üçün yeni dövr, yeni mərhələ başlandığını bildirmiş, rayonda kənd təsərrüfatının və sənayenin inkişafı ilə əlaqədar öz tövsiyə və tapşırıqlarını vermişdir.

Hesabat ilində rayonda abadlıq və quruculuq işləri davam etdirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 26 avqust 2016-cı il tarixli Sərəncamı ilə Çuxanlı-Piratman-Gəncəli-Parça Xələc-Seyidan avtomobil yolunun tikintisinin başa çatdırılması məqsədi ilə Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində "Avtomobil Yolları" Məqsədli Büdcə Fondunda nəzərdə tutulmuş vəsaitdən 3,8 milyon manat vəsait ayrılmışdır. 30,2 km kəndarası avtomobil yolunun tikintisi əsasən başa çatdırılmışdır və hazırda son tamamlama işləri aparılır.

Azərbaycan Respublikası Prezidentinin 7 sentyabr 2016-cı il tarixli Sərəncam ilə Salyan şəhərində 1200 şagird yerlik yeni ümumtəhsil məktəb binasının tikintisi üçün Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Salyan Rayon İcra Hakimiyyətinə ilkin olaraq 3,0 (üç) milyon manat vəsait ayrılmışdır.

Məktəb tikintisi üçün müvafiq torpaq sahəsi ayrılmış, layihə-smeta sənədləri hazırlanmış, binanın bünövrəsi qazılmış, bünövrəyə dəmir beton sütunlar olmaqla ümumilikdə 591 m3 beton tökülmüşdür. Tikilinin bünövrəsində 413 m2 qalınlığı 40 sm olan mişar daşından hörgü işi aparılmışdır. İşlər nəzərdə tutulan plan üzrə davam etdirilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 oktyabr 2016-cı il tarixli, 537-s saylı sərəncamına əsasən Salyan rayonunda pambıqçılığın inkişafı ilə əlaqədar 5000 ha sahənin suvarma suyu ilə təmin edilməsi üçün 500,0 min manat, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 yanvar tarixli, 2607 nömrəli sərəncamına əsasən isə 2017-ci ilin dövlət büdcəsində nəzərdə tutulan dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündən 1 milyon 300 min manat vəsait ayrılmışdır.

Burada da işlərə başlanılmış, ərazidə olan "F-4" kanalında 6200 m məsafədə, "LSMK" kanalında isə 2200 m məsafədə genişlənmə və dərinləşdirmə işi aparılmış, "F-4" kanalı üzərində 12 x 4,5 m ölçüdə körpü hazırlanmışdır.

2016-cı ilin avqust ayından başlayaraq İkinci Azərbaycan Kənd İnvestisiya Layihəsinin maliyyə dəstəyi ilə rayonun kəndlərində bir sıra layihələr həyata keçirilmişdir. Belə ki, Parça Xələc, Seyidan, Qarabağlı, Gomuşlu, Təzəkənd, Kolanı, Yenikənd kəndlərində ümumi uzunluğu 54 km olan kənddaxili yollara çınqıl döşənmiş, Şəkərli kəndində tibb məntəqəsinin tikintisinə başlanılmışdır.

Çuxanlı kəndində yem sexinin, Kərimbəyli kəndində uşaq bağçasının, Kürsəngi, Bəşirbəyli kəndlərində əlavə sinif otaqlarının, İkinci Varlı, Boranıkənd, Çadırlı, Quyçu kəndlərində tibb məntəqələrinin, rayonun 17 kəndində isə kənddaxili yolların təmiri ilə əlaqədar səfərbərlik yığıncaqları, informasiya görüşləri keçirilmiş, təlimlər verilmişdir.

Rayon ərazisində 2017-ci ildə Üçüncü Azərbaycan Kənd İnvestisiya Layihəsində işlərin davam etdirilməsi nəzərdə tutulmuşdur.

Salyan şəhərində Yeni Azərbaycan Partiyası rayon təşkilatı üçün inzibati binasının, "Babazanan" yaşayış massivini Salyan şəhəri ilə birləşdirən və Ələt-Astara magistral avtomobil yolunda, Çuxanlı kəndi ərazisində Kür çayı üzərində körpülərin, Seyidan kəndində 132 şagird yerlik yeni məktəb binasının tikintisi başa çatdırılmış, Ələt-Astara yolunun 29,5-ci km-də Baş Dövlət Yol Polisinin Yol Patrul Xidməti üçün yeni inzibati bina tikilib istifadəyə verilmiş, Salyan Tarix-Diyarşünaslıq muzeyinin əsaslı təmir edilərək yenidən

qurulmuşdur.

Rayon Prokurorluğu və Kənd Təsərrüfatı idarəsi üçün inzibati binaların, 24 mənzilli 5 və 27 mənzilli 7 mərtəbəli yaşayış binalarının tikintisi isə başa çatmaq üzrədir.

Hesabat dövründə rayonda abadlıq və quruculuq işləri davam etdirilmişdir. Salyan şəhərinin ad göstərici "Qoşa qala"nın tikintisi başa çatdırılmış, X.R.Ulutürk abidəsi təmir edilmiş, Ə.B.Hüseynzadənin abidəsinin ətrafında əsaslı abadlıq işləri görülmüş, Salyan dairəsi və 1941-1945-ci illər Böyük Vətən Müharibəsi abidəsi əsaslı təmir edilmiş, şəhər qəbiristanlığında olan qardaşlıq məzarı təmir olunmuş, şəhərdə olan uşaq poliklinikasının və Ə.Kürçaylı küçəsində yerləşən inzibati binaların fasadları təmir edilmişdir. Şəhərin Heydər Əliyev, M.Ə.Rəsulzadə, T.Davudzadə, T.Xəlilbəyli, Ə.B.Hüseynzadə, Ə.Hüseynov, N.Nərimanov, H.Z.Tağıyev, Ə.Kürçaylı küçələrində abadlıq quruculuq işləri görülmüşdür. Belə ki, Şəhər küçələri təmir olunaraq 3615 kv.m üzlük daşları döşənmiş, səki kənarına 6603 metr bordurlar düzülmüş, 3050 metr küveyt qazılmış, 5625 m2 sahəyə tamet-piltə düzülmüş və 23549 m2 asfalt basılmışdır. 32 ədəd kommunal binanın dam örtüyü 18773 m2 dəmir şiferlə əvəz olunmuş, 2500 m2 fərdi evlər və istinad divarları rənglənmiş, şəhər küçələrində ümumilikdə 11000 metr beton bordürlər rənglənmiş, Bakı-Astara avtomobil yolunun Salyan şəhər ərazisindən keçən hissəsində istinad divarlarına "ağlay" üzlük plitəsi vurulmuş, divarlar karniz üzlük ilə üzlənmişdir.

Şəhərin Ə.Quliyev küçəsində olan 14 ədəd kommunal binaların fasadları, giriş blokları, 2 binanın novları və su axıdan boruları təmir olunmuş, Heydər Əliyev, T.Davudzadə, T.Xəlilbəyli, M.Ə.Rəsulzadə, H.Z.Tağıyev küçələrində işıqlandırma dirəkləri quraşdırılmış, səkilərdə yaşıllıq sahələri salınmış və dekorativ ağaclar əkilmişdir.

Bayraq meydanının baxımsızlıq nəticəsində sıradan çıxması ilə əlaqədar cari təmir işləri aparılmışdır. Meydanın qarşısında olan 450 m-dən artıq uzunluğu olan və tam sıradan çıxmış küvet yenidən tikilmişdir.

Nazim Babayev küçəsində 4 kommunal binanı və 50-dən artıq fərdi yaşayış evini əhatə edən, 10 ildən artıq müddətdə baxımsız qalmış, əhaliyə eyni zamanda çirkab sularının axıdılmasına xidmət göstərən 4 km dren-kollektoru təmizlənmiş, su keçidlərinə iri diametrli yeni borular qoyulmuş, həmin ərazidə uzun müddət baxımsız və bataqlığa çevrilmiş yola 30 maşın çınqıl və bişmiş kərpic blok qırıntıları tökülmüşdür.

Rayonda qeyri neft sektorunun, o cümlədən kənd təsərrüfatının inkişaf etdirilməsi, yeni istehsal sahələrinin yaradılması istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi Sahibkarlığa Kömək Milli Fondunun kreditləri və sahibkarların vəsaiti hesabına yeni istehsal və emal sənayesi sahələrinin yaradılması istiqamətində işlər aparılmışdır.

Rayonun Qarabağlı, Yenikənd və

Xələc kəndlərində hər birinin sahəsi 1,0 ha olan 6 müasir tipli istixana yaradılmış, Salyan şəhərində "SÜNBÜL-2012" MMC tərəfindən Un dəyirmanının və 2 mərtəbəli bazar-ticarət mərkəzinin tikintisinə başlanılmışdır.

Ölkə başçısı tərəfindən sahibkarlığın inkişafına yaradılmış münbit şəraitin nəticəsi olaraq rayonda "BRM üzüm"MMC, "Gilə"MMC, "Qaraçala MMC", "Balacans" MMC, Qarabağlı kooperasiya və sair kimi iri təsərrüfatlar yaradılmışdır.

Eyni zamanda "Ələddin Fermer" MMC-nin illik istehsal gücü 600 ton olan meyvə qurutma müəssisəsinin, Qaraçala qəsəbəsində 2400 başlıq heyvandarlıq kompleksinin, Kür Qaraqaşlı kəndində "Nurgün Aqro" MMC-də 400 başlıq heyvandarlıq kompleksinin və 40 başlıq müasir tələblərə cavab verən kompüterləşmiş sağım sexinin tikintisi başa çatdırılmışdır.

Əhalinin işlə təmin olunması istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi nəticəsində 2016-cı ildə 2381 daimi olmaqla 4005 yeni iş yeri yaradılmışdır.

2016-cı ildə rayonda məhsul buraxılışının həcmi müvafiq dövrə nisbətən 36 milyon 529 min manat, yəni 14,8 faiz artaraq 282 milyon 687 min manat, kənd təsərrüfatı məhsullarının ümumi həcmi müvafiq dövrə nisbətən 803 min manat, yəni 0,6 faiz artaraq 144 milyon 195 min manat, poçt və rabitə xidmətinin həcmi 19,9 min manat, yəni 3,5 faiz artaraq 584 min manat, pərakəndə satış dövriyyəsi 33 milyon 181 min manat, yəni 19,1 faiz artaraq 206 milyon 664 min manat, əhaliyə göstərilən pullu xidmət 6 milyon 861 min manat, yəni 14,7 faiz artaraq 53 milyon 572 min manat, sənaye məhsulunun ümumi həcmi 25 milyon 715 min manat, yəni 66,3 faiz artaraq 64 milyon 451 min manat, nəqliyyat xidmətinin həcmi 2 milyon 266 min manat, yəni 2,4 dəfə artaraq 3 milyon 899 min manat, əsas kapitala yönəldilən investisiya 77 milyon 928 min manat olmuşdur.

Bir nəfərə düşən məhsul buraxılışının həcmi 2088 manat, bir nəfərə düşən orta aylıq əmək haqqı 302,5 manat olmuşdur.

2016-cı ildə rayonun yerli büdcəsinin gəlirləri 7 milyon 710 min manata qarşı, 8 milyon 496 min manat, büdcənin xərcləri 22 milyon 677 min manat proqnoza qarşı 22 milyon 239 min manat icra edilmişdir. Büdcənin gəlir və xərclərini tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən 14 milyon 967 min manat proqnoza qarşı 14 milyon 575 min manat, yəni nəzərdə tutulduğundan 392 min manat az dotasiya alınmışdır. Rayonun büdcə təşkilatlarında çalışan işçilərin əmək haqqı, pensiya və müavinətlər vaxtında tam ödənilmişdir.

"Büdcə sistemi haqqında" qanuna, eləcədə rayonun 2017-2020-ci illəri əhatə edən sosial-iqtisadi inkişaf konsepsiyasına uyğun olaraq təsdiq edilmiş 2017-ci ilin yerli gəlir və xərcləri artıq icra edilməkdədir. Tərəfimizdən büdcə daxilolmalarının bütün ehtimal olunan mənbələri hesablanaraq 2017-ci ilin yerli gəlir və xərclərinin layihəsi ilk dəfə dotasiyasız təsdiq edilmişdir. Yəni bu ildən başlayaraq rayonun yerli xərcləri tam şəkildə daxili gəlirlərimiz hesabına maliyyələşdiriləcək, hətta tərəfimizdən dövlət büdcəsinin mərkəzləşdirilmiş gəlirlərinə 135,0 min manat əlavə vəsait ödənilməsi nəzərdə tutulmuşdur.

İlk dəfə olaraq Dövlət Neft Şirkətinin, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin, "Azərenerji" ASC-nin yerli təşkilatlarının vergi ödənişləri yerli gəlirlərə cəlb edilmiş, "İlkin-N" MMC-nin hüquqi ünvanı dəyişdirilərək bütün vergi ödəmələri rayon büdcəsinə yönəldilmişdir.

2017-ci ildən başlayaraq təhsil və mədəniyyət xərcləri mərkəzləşdirilmiş xərclərdən ödənildiyi üçün rayonun yerli xərcləri azalaraq 10 milyon 164 min manat proqnozlaşdırılmışdır ki, bu da ötən ilə nisbətdə 31,8% və ya 2 milyon 454 min manat çoxdur.

Cari ilin xərclərinin azaldılmasına baxmayaraq sosial yönümlü bütün xərclərin prioritetliyi saxlanılmaqla büdcə xərclərində nəzərdə tutulan bütün sosial öhdəliklərin maliyyə təminatı tam şəkildə nəzərə alınmışdır.

Rayon əhalisinin sosial problemlərinin həll edilməsi daim diqqət mərkəzində saxlanılır. Belə ki, "Ünvanlı sosial yardım haqqında" qanununa uyğun olaraq 1433 ailənin 6193 nəfər üzvünə sosial yardım verilir. Bir ailəyə düşən sosial yardımın orta məbləği 153,61 manat təşkil etmişdir.

"Sosial müavinətlər haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq hazırda 5292 nəfərə sosial müavinət ödənilir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi ilə pensiya islahatlarının təmin edilməsi siyasəti uğurla həyata keçirilir.

Rayonda 15 min 895 nəfər pensiyaçıya xidmət olunur, ondan yaşa görə 10 min 159, əlilliyə görə 4002 nəfər və ailə başçısını itirməyə görə 1734 nəfər olan pensiyaçılardır. Cəmi pensiyaçılardan 1412 nəfəri işləyən pensiyaçılardır.

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən rayonda yaşayan 17 şəhid ailəsi və 1 Qarabağ müharibəsi əlili üçün fərdi yaşayış evi tikilib istifadəyə verilmişdir.

Azərbaycan Respublikası Regionlarının (2014-2018-ci illər) Sosial-İqtisadi İnkişafı Dövlət Proqramı"nın və "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nın icrası ilə əlaqədar aqrar sahədə rayonda bir sıra tədbirlər həyata keçirilmişdir.

Rayonda 21239 ha taxıl sahəsindən 64850 ton olmaqla, 30,5 sentner məhsul toplanmışdır. Bundan 14738 ha arpa sahəsindən 43248 ton olmaqla, 29,3 sentner, 6501 ha buğda sahəsindən 21602 ton olmaqla, 33,2 sentner məhsul toplanmışdır. 870 ha qarğıdalı sahəsindən 6089.1 ton, 423 ha kartof sahəsindən 5107,5 ton, 1092 ha bostan sahəsindən 15708,0 ton, 1272 hektar tərəvəz sahəsindən 14061,0 ton məhsul yığılmışdır.

Rayonda faraş tərəvəz istehsalının artırılması və ixracının təşviq edilməsi istiqamətində tədbirlər davam etdirilir.

Belə ki, rayonun Qaraçala qəsəbə, Yenikənd və Qarabağlı kənd ərazilərində istixana sistemində yetişdirilən faraş tərəvəzlər (xiyar, pomidor) yaxın xarici bazara göndərilir.

2016-cı ildə 1544,1 tondan çox üzüm tədarük edilmişdir. Üzümçülüyün inkişaf etdirilməsi, süfrə üzüm sortlarının istehsalının artırılması istiqamətində tədbirlər həyata keçirilir. Hazırda rayonda 1187 hektar üzüm bağları var, bundan 951,9 ha bar verən üzüm bağlarıdır.

2016-cı ildə rayonda mövcud meyvə bağlarının bərpası və yeni bağların salınması istiqamətində tədbirlər həyata keçirilmiş, 2826,7 tondan çox meyvə tədarük edilmişdir.

2016-cı il də rayonda 2167,7 ha sahədə pambıq əkilmişdir. Hazırda rayonda pambıq yığımı başa çatmış, 2680,4 ton olmaqla, hər hektardan 12,4 sentner məhsul toplanmışdır. Rayonda pambığın məhsuldarlığının aşağı olmasına əsas səbəb əkinin gec aparılması, bununla əlaqədar pambığın gec yetişməsi və hava şəraitinin əlverişsiz keçməsi olmuşdur.

Artıq 2017-ci il üçün pambıq əkininə hazırlıq işinə başlanılmışdır. Əkiləcək 7000 hektar torpaq sahəsi müəyyən edilmiş, 5000 hektardan çox əkin sahəsi şumlanmışdır. Hazırda pambıq əkini üçün sahələrin arata qoyulması işi davam etdirilir.

Lakin hazırda rayonda olan mövcud texnika və avadanlıq nəzərdə tutulan pambıq əkininin lazımi səviyyədə aparılmasında, nəzərdə tutulan məhsulun becərilməsində çətinliklər yaradacaqdır. Tərəfimizdən araşdırma aparılmış və nəzərdə tutulan pambıq əkini üçün əlavə olaraq Pambıqyığan maşınlara, kultivatora, çiyidsəpənə, çiləyiciyə və traktor yedəklərinə ehtiyac vardır. Aprel ayının əvvəllərinin pambıq əkininin başlanma vaxtı olduğunu nəzərə alsaq, qeyd olunan texnika və avadanlıqların tezliklə rayona gətirilməsi üçün aidiyyatı təşkilatlar indidən müvafiq tədbirlər görməlidirlər.

Rayonun Qızılağac kəndi ərazisində yeni Aqroparkın yaradılmasına başlanılmışdır. Bununla əlaqədar müvafiq torpaq sahəsi müəyyən edilmişdir. Mənbəyi Akkuşa suvarma kanalı olmaqla ümumi uzunluğu 15 km su kanalı və ərazidə olan mövcud kollektor-drenaj şəbəkəsinin 30 km hissəsi lildən təmizlənmiş, 19 ədəd müxtəlif təyinatlı texnika alınmış, 5 ədəd (hər biri 200 başlıq) tövlə tikintisinə başlanmışdır. 300 ha pambıq, 400 ha taxıl, 100 ha yonca, 100 ha qarğıdalı əkilməsi, 50 ha istixana tikintisi üçün hazırlıq işlərinə başlanılmışdır.

2017-ci il yanvar ayının 1-nə iri buynuzlu heyvanların sayı 62 min 914 baş, o cümlədən inək və camışlar 33 min 426 baş, qoyun və keçilər 186 min 714 baş olmuşdur. Ət istehsalı (diri çəkidə) 13 min 178 ton, yumurta istehsalı 34 milyon 800 min ədəd, yun istehsalı 346,1 ton, süd istehsalı isə 45 min 11 ton olmuşdur.

2016-cı ildə rayon ərazisində torpaqların münbitliyinin və suvarılan torpaq sahələrinin artırılması istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir. 01 yanvar 2017-ci il tarixə rayon ərazisində torpaq sahələrinin su təminatının və meliorativ vəziyyətinin yaxşılaşdırılması məqsədilə 398 km kollektor dren şəbəkəsi, 1100 km suvarma kanalları lildən təmizlənmişdir.

2016-cı ildə rayon ərazisində 39 min ədəddən çox ağac və gül kolları əkilmiş, onlara aqrotexniki qaydalara uyğun qulluq göstərilməsinə, qorunub saxlanılmasına qayğı göstərilmişdir. Əkilən ağacların əksər hissəsini həmişə yaşıl ağaclar (eldar şamı, sərv, küknar və bəzək ağacları) təşkil etmişdir.

Qeyd edilən nailiyyətlərlə yanaşı rayonda aqrar sahənin intensiv üsullarla inkişaf etdirilməsi, əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramının icrası ilə əlaqədar bir sıra problemlər mövcuddur. Belə ki, əkin sahələrinin vegetasiya suvarma suyu ilə vaxtında və səmərəli təmin edilməsi üçün mövcud nasos stansiyalarının rekonstruksiya edilməsinə, bəzi ərazilərdə suvarma kanallarının və hidrotexniki qurğuların bərpasına və mövcud kollektor drenaj şəbəkələrinin yenidən qurulmasına ehtiyac vardır. Bundan əlavə əhalinin ərzaq məhsullarına, o cümlədən ərzaq buğdasına olan tələbatının daxili istehsal hesabına ödənilməsi üçün toxumçuluğun inkişaf etdirilməsinə, kənd təsərrüfatı məhsulları istehsalçılarının damazlıq mal-qara ilə təmin edilməsi üçün süni mayalama və damazlıq işlərinin genişləndirilməsinə diqqət artırılmalıdır.

Ardı 3-cü səhifədə

Salyan rayonunun 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunları və 2017-ci ildə qarşıda duran vəzifələr barədə rayon İcra Hakimiyyəti başçısının HESABATI

Əvvəli 2-ci səhifədə

Əhalinin həyatında mühüm əhəmiyyətə malik olan elektrik, təbii qaz, içməli su təminatı sahəsində müəyyən işlər görülmüşdür.

Rayon üzrə 33487 abonent elektrik enerjisindən istifadə edir.

Salyan Elektrik Şəbəkəsinin xidməti ərazisində hesabat ilində 35 ədəd müxtəlif gücdə olan transformator əsaslı, 595 ədəd müxtəlif gücdə olan transformatorlar isə cari təmir olunmuşdur.

379 ədəd yağ açarı cari, 5 ədəd yağ açarı isə əsaslı təmir olunmuş, 683 ədəd güc transformatoruna 71,3 ton transformator yağı əlavə olunmuşdur.

4735 ədəd qüsurlu sayğac dəyişdirilmiş, 1019 yeni abonentə sayğac quraşdırılmışdır.

Rayon ərazisində fiziki köhnəlmiş çılpaq naqillərin SİB kabellə əvəz olunması ilə əlaqədar 424 ədəd dəmir və dəmir-beton dayaq və 31 ədəd dəmir-beton diblik quraşdırılmış, fiziki köhnəlmiş 1030 ədəd ağac dayaq yeni dəmir və dəmir-beton dayaqla əvəz olunmuşdur.

Rayon ərazisində 35 ədəd 10/6/0.4 kV-luq transformator yarımstan-siyası quraşdırılmış, Kür Qaraqaşlı və Xurşud kəndlərində müvafiq olaraq 110 və 35 minlik yeni transformator yarımstansiyalarının tikintisinə, 35 minlik Gomuşlu yarımstansiyasının yenidən qurulmasına başlanılmışdır. Texniki itkilərin azaldılması məqsədilə rayon ərazisində 25,7 km SİB kabel çəkilmişdir.

Salyan şəhərində ümumilikdə 1606 abonentə müasir "SMART kart" tipli sayğac quraşdırılmışdır.

Rayon İcra hakimiyyəti başçısının ərazilərdə keçirdiyi səyyar görüş-qəbullarda vətəndaşların etdiyi müraciətlərin əksəriyyətinin yararsız elektrik dirək və naqillərinin dəyişdirilməsi, elektrik təsərrüfatının yenidən qurulması təşkil edir. Düzdür rayon Elektrik şəbəkəsi tərəfindən bu istiqamətdə müvafiq tədbirlər görülür, lakin işin sürətləndirilməsinə ciddi ehtiyac vardır.

Ümumiyyətlə, bütün yaşayış məntəqələrində elektrik təsərrüfatının yenilənməsinə, Smartkart sayğaclarının quraşdırılmasına, naqillərin SİP kabellərlə əvəz edilməsinə ehtiyac vardır

Əhalinin təbii qazla təmin edilməsi istiqamətində müəyyən işlər görülmüşdür.

Salyan şəhərinin mərkəzi və ətraf kəndlərində istehlakçıların qaz təsərrüfatına quraşdırılmış qaz sayğaclarının yeni çəkilmiş qaz xətləri üzərinə köçürülməsi işləri davam etdirilir.

2016-cı ildə Yeni Uluxanlı kəndində 229 evə, II Varlı kəndində 200 evə, I Varlı kəndində 256 evə, Marışlı kəndində 250 evə, Çadırlı kəndində 477 evə, Pambıqkənd və Bəşirbəyli kəndlərində isə ümumilikdə 459 evə, şəhərin Ə.Quliyev küçəsində isə 24 evə qaz verilişi bərpa edilmişdir.

Salyan rayonu üzrə il ərzində ümumi uzunluğu 143282 metr boru xətti çəkilmiş və 2498 yeni ev qazlaşdırılmış, təbii qazla təmin olunan abonentlərin sayı 23459-a çatdırılmışdır.

Lakin görülən işlərlə yanaşı bu sahədə problemlər hələ də qalmaqdadır. Hələ də rayonda 8 yaşayış məntəqəsi qazlaşdırılmayıb. O cümlədən Xıdırlı kəndi Sovetlər dövründən qazlaşdırılmamış qalmışdır. Fövqəladə Hallar Nazirliyi tərəfindən Kür çayında suyun səviyyəsinin qalxması nəticəsində evlərinə ziyan dəymiş vətəndaşlar üçün tikilmiş, eləcə də hazırda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün tikilən fərdi yaşayış evlərinin, rayonun Qırx Çıraq qəsəbəsi, Çuxanlı və Aşağı Kürkəndi kəndlərində yeni salınmış yaşayış massivlərinin qazlaşdırılmasına ciddi ehtiyac vardır.

Rayonun 5 tam orta məktəbində qazanxana qurulsa da, sistemin təbii qaz xəttinə birləşdirilməsi problem olaraq qalmışdır. Rayonun bir sıra yaşayış binalarına hələ də qaz verilişi təmin edilməmişdir. Son vaxtlar rayon ərazisində təbii qaz verilişində olan fasilələrin olması, təzyiqin tez-tez dəyişməsi narahatlıq yaratmışdır.

Salyan şəhərinin su təminatı mənbəyi Kür çayı olmaqla, 1956-cı və 1972-ci illərdə tikilmiş 1 və 2 saylı su təmizləyici qurğular vasitəsi ilə təmin edilirdi. Uzunmüddətli istismar nəticəsində təmizləyici qurğuların yararsız vəziyyətə düşməsi əhalinin artan tələbatını ödəməkdə çətinliklər yaratmışdır.

2016-cı ilin aprel ayının 13-dən başlayaraq Kür Su təmizləyici Qurğular Kompleksindən Biləsuvar rayonuna çəkilən su kəmərindən Salyan şəhərinin mövcud su şəbəkəsinə qoşulmaqla 1400 metr 710 mm-lik yüksək təzyiqli, 1900 metr müxtəlif diametrli orta təzyiqli su xətləri çəkilmiş, şəhərin 38 min nəfər əhalisindən, 25 min nəfəri (4,6 min abonent) içməli su ilə təmin edilmişdir.

Şirvan şəhər, Hacıqabul, Salyan və Neftçala şəhərlərinin su təchizatının yaxşılaşdırılması məqsədilə yeni magistral su kəmərinin inşası ilə əlaqədar Babazanlı dağında yeni su anbarının tikilməsi və təzyiqli su xətlərinin çəkilməsi işləri nəzərdə tutulub.

Lakin bu sahədə də nöqsan və çatışmazlıqlar qalmaqdadır. Salyan şəhərinin kanalizasiya şəbəkəsinin genişləndirilməsi və tikintisinə hələ də başlanılmamışdır.

Sentyabr ayının son günlərində rayona yağan intensiv yağışlar nəticəsində Salyan şəhərinin 100-dən artıq fərdi yaşayış evlərinin həyətlərində, kommunal binaların zirzəmilərində, küçələrdə çoxlu miqdarda su yığılmışdır.

Şəhər sakinlərinin bilavasitə yaşayış şəraitinə təsir edən bu kimi amillərin aradan qaldırılması üçün rayon İcra hakimiyyətində dərhal müvəqqəti qərargah yaradılmış, su yığılan həyətlər müəyyən edilmiş və onların aradan qaldırılması üçün tədbirlər görülməsinə başlanılmışdır. Rayon İcra hakimiyyəti tərəfindən 10 suvuran aqreqat alınmış, kommunal təsərrüfatı idarəsinin 2 Asunsion maşını və Fövqəladə Hallar Nazirliyi Muğan Regional Mərkəzinin 8 suvuran aqreqatı həyətlərin qrunt sularından təmizlənməsinə cəlb edilmişdir.

Eyni zamanda "Azərsu" ASC-dən gətirilmiş xüsusi avtoaqreqat mərkəzi kanalizasiya sisteminin təmizlənməsinə cəlb edilərək 4 gün ərzində fəaliyyət göstərmişdir.

Mövcud drenaj sisteminin şəhərin yalnız 25 %-ni əhatə etməsi, drenaj şəbəkəsinin genişləndirilməsi ilə əlaqədar tikinti işlərinin yarımçıq qalması, şəhərin mərkəzi kanalizasiya sisteminin uzunmüddətli istismarı nəticəsində axıcılıq qabiliyyətinin aşağı olması və şəhərin cəmi 10-15 faizini əhatə etməsi əlavə çətinliklər yaratmışdır.

Bu sahədə də tədbirlərin görülməsinə, şəhərin kanalizasiya sisteminin yenidən qurulmasına, yarımçıq qalmış drenaj şəbəkəsinin genişləndirilməsi tikintisinin davam etdirilməsinə ciddi ehtiyac vardır.

Rayonun təhsil sahəsində müəyyən işlər görülmüşdür.

Hesabat ilində 14 məktəbdə 242 min 633 manatlıq əsaslı və cari təmir işləri görülmüşdür. Parça Xalac kənd tam orta məktəbinin dam örtüyü tamamilə yenilənmiş, Yuxarı Xalac-2 kənd tam orta məktəbinin dam örtüyünün uçmuş hissəsi bərpa edilmiş, 1, 5, 7, 8 saylı şəhər və Qırxçıraq kənd məktəblərində yeni sanitar qovşaqlar tikilmiş, şəhər 2, 3, 4, 5 saylı məktəblərin bir neçə sinif otaqlarının döşəmələri dəyişdirilmişdir. Çuxanlı kənd tam orta məktəbinin qazanxanasına yeni müasir qazan qoyulmuş, Pambıqkənd və Qardili kənd məktəblərinin qazanxanalarında təmir işləri aparılmış, şəhər 7 saylı məktəbin istilik sisteminin sıradan çıxmış sudaşıyıcı metal boruları plastik borularla əvəz edilmiş, şəhər 4 saylı məktəbin istilik sisteminin binanın daxilində yerləşən hissəsində qızdırıcıların yararsız olanları dəyişdirilmiş, qazanxananın ehtiyat qazanı təmir edilərək işlək vəziyyətə gətirilmişdir. Şəhər 5 saylı ümumi orta məktəbdə yeni istilik sistemi qurulmuşdur. Şəhər 6 və 9 saylı, Qaraçala, Dayıkənd və Boranıkənd kənd məktəblərinin qazanxanalarının qaz xəttinə qoşulması kimi uzun illərdir qalan problemin həlli istiqamətində işlər görülmüşdür. Artıq 5 məktəbin hər birinin qazanxanasına qaz xətti çəkilmiş, 9 saylı tam orta məktəbin qaz sayğacı laboratoriyada sazlanmadan keçərək quraşdırılmışdır. Yaxın günlərdə qalan 4 məktəbin də qaz sayğaclarının laboratoriyada sazlanmadan keçirilərək xəttə qoşulması təmin ediləcəkdir.

Cari tədris ilinin nəticələrinə görə 1506 nəfər ümumi orta təhsil haqqında şəhadətnamə, 1212 nəfər isə tam orta təhsil haqqında attestat almışdır. 2 şagirdə təlim müvəffəqiyyətlərinə görə xüsusi nümunəvi şəhadətnamə verilmişdir. Tam orta təhsil almış məzunlardan 352 nəfər ali, 106 məzun isə orta ixtisas təhsili müəssisələrinə daxil olmuşdur. Buraxılış imtahanlarının nəticələrinə görə şəhər 4 saylı tam orta məktəbin məzunu Şabanzadə Elvin Nazim oğlu Qızıl medal"a layiq görülmüşdür. Ali məktəblərə qəbul olmuş məzunlardan 70 nəfər 500-dən yuxarı bal toplamışdır ki, bunların da 21 nəfəri 600-dən yuxarı bal toplamışdır.

Rayonumuzun ümumi təhsil müəssisələrində çalışan 1975 nəfər müəllim bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi siyahısına daxil edilmiş, onların 88 nəfərinin diaqnostik qiymətləndirilmədə iştirakından imtina edilmişdir ki, bunların 63 nəfəri müəllimlərin işə qəbulu imtahanlarından kənar işə qəbul olunan, 25 nəfəri isə dövlət nümunəli olmayan diplomlarla işləyən müəllimlərdir.

Hesabat ilində ənənəvi olaraq təqaüddə olan təhsil işçilərinə diqqət göstərilmişdir. 5 Oktyabr-Beynəlxalq Müəllimlər günü qeyd edilmiş, təqaüdçü-müəllimlər Sədaqət Vahidova və Rahilə Qasımova evində ziyarət edilmiş, onların ailə-məişət qayğıları ilə maraqlanılmışdır.

İstedadlı uşaqlarla iş diqqət mərkəzində saxlanılmış, məktəblilərin fənn olimpiadasının Respublika turunda iştirak edən Marışlı kənd tam orta məktəbin XI sinif şagirdi Nuranə Zeynalova tarix fənni üzrə III yeri tutaraq diplomla təltif olunmuşdur. Təhsil Nazirliyi tərəfindən keçirilən "Ədəbiyyat biliciləri" müsabiqəsində Yenikənd kənd tam orta məktəbin XI sinif şagirdi Taleh Həsənov III yeri tutaraq diplomla mükafatlandırılmışdır.

Ölkə prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən uşaqların yay tətilini səmərəli keçirmələri üçün istirahət yay düşərgələri yenidən bərpa edilmiş və fəaliyyətə başlamışdır. Rayon İcra hakimiyyəti başçısının təşəbbüsü ilə 20 məktəbli Bakı şəhərinin Şüvəlan qəsəbəsində yerləşən "Cırtdan" uşaq və istirahət mərkəzində dincəlmişlər.

Hər il olduğu kimi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən ölkəmizin tarixinin, mədəniyyətinin, adət-ənənələrinin, müstəqillik illərində əldə edilmiş nailiyyətlərin dərindən öyrənilməsi məqsədilə müxtəlif şəhər və rayonlarda yaşayan məktəbli gənclərin respublikamızın digər bölgələrinə səyahətinin təşkili davam etdirilir. 17 noyabr 2016-cı il tarixində "Ölkəmizi tanıyaq" devizi altında təşkil olunan bu tur-aksiyalarda 40 məktəblimiz Gəncə şəhərinə, Göygöl və Şəmkir rayonlarına səfər etmişdir.

Bunlarla yanaşı təhsil sahəsində problemlər də mövcuddur.

Rayonda fəaliyyət göstərən 54 ümumtəhsil məktəbindən 23-ü uyğunlaşdırılmış binalarda yerləşir ki, bu məktəblərdə 5775 şagird təhsil alır. Bu məktəblərin əsaslı təmirə, Başirbəyli kəndində isə məktəb tikintisinə ehtiyac vardır.

Hesabat dövründə səhiyyə sahəsində müəyyən işlər görülmüşdür.

Əhalinin sağlamlığının qorunması Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin daim diqqət mərkəzindədir. Məhz onun tapşırığına əsasən artıq üçüncü ildir ki, 18 yaşdan yuxarı əhalinin tibbi müayinəsi, 18 yaşadək uşaqların icbari dispanserizasiyası aparılmışdır. Hesabat dövründə rayon əhalisinin 61988 nəfəri tibbi müayinədən, 35607 uşaq isə icbari dispanserizasiyadan keçirilmişdir. Tibbi müayinədən və dispanserizasiyadan keçənlərin 8673 nəfəri ambulator, onlardan 341 nəfəri isə stasionar müalicəyə cəlb olunmuşdur.

Qan xəstəliklərindən əziyyət çəkən xəstələrə yardım məqsədilə Mərkəzi Rayon Xəstəxanasında qanvermə aksiyası keçirilmiş, 64 nəfər qan vermişdir.

Hemodializ şöbəsində hazırda 57 xəstəyə tibbi xidmət göstərilmişdir. Burada Salyan sakinləri ilə yanaşı Neftçala və Sabirabad rayon sakinlərinə də tibbi xidmət göstərilir.

Vərəm, şəkərli diabet, onkoloji, QİÇS və qan xəstələri dövlət tərəfindən müəyyən edilmiş qaydalarla dərman preparatları ilə təmin edilmişlər. İl ərzində şəkərli diabet xəstələrinə 271 min 275 manat dəyərində dərman, dializ xəstələrinə 471 min 562 manatlıq, vərəm xəstələrinə isə 782 min manatlıq dərman preparatları verilmişdir.

Nikaha daxil olmaq üçün 1789 nəfər müayinə olunmuş, onlardan 3 cütlükdə iki, 63 cütlükdə isə birtərəfli talassemiya daşıyıcısı aşkar edilmişdir.

Rayonun Sarvan, Şorsulu kəndlərində və şəhər məktəblərində Mərkəzi Rayon Xəstəxanasının göz həkimləri tərəfindən səyyar müayinələr aparılmışdır.

Hesabat ilində "Xəzər Qaygıkeşlik Layihəsi" çərçivəsində Azersell Mobil Göz Klinikasının səyyar həkim briqadası rayonda olmuş və 78 xəstəni müayinə etmişdir.

Mərkəzi Rayon Xəstəxanasının qadın məsləhətxanası, yeni doğulmuşlar şöbəsi, Arbatan həkim məntəqəsi təmir edilmişdir.

Bunlarla yanaşı, səhiyyə sahəsində müəyyən problemlər və nöqsanlar da vardır. Rayonda 77 həkimə, 60 orta tibb işçisinə, mamalıq-ginekologiya şöbəsinin yerləşdiyi korpusun, yoluxucu xəstəliklər şöbəsinin 2-ci mərtəbəsinin, Birləşmiş Uşaq və Parça-Xələc kənd xəstəxanalarının, Birləşmiş Uşaq Xəstəxanasının Poliklinika şöbəsinin, əksər tibb müəssisələrinin əsaslı təmirə, zəruri inventar və tibbi avadanlıqlara və istilik sistemləri ilə təmin olunmasına ehtiyac vardır. 4 kənddə tibb müəssisəsi yoxdur, 7 kənddə tibb məntəqələrinin müstəqil binaları olmadıqları üçün şəxsi evlərdə yerləşir. Səhiyyə işçiləri arasında əmək intizamı, işə davamiyyət qeyri-qənaətbəxşdir. İşdəki nöqsanların aradan qaldırılması üçün tədbirlər görülməsi dəfələrlə Mərkəzi Rayon Xəstəxanasının baş həkiminə tapşırılsa da, belə hallar yenə də davam edir.

Hesabat dövründə rayonda 10 mədəniyyət evi, 22 klub, 47 kitabxana, Heydər Əliyev Mərkəzi, Tarix-Diyarşünaslıq muzeyi, Dövlət Rəsm Qalereyası, Dövlət Kukla Teatrı, İncəsənət və Musiqi məktəbləri əhaliyə mədəni xidmət göstərmişdir. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti tərəfindən normal iş şəraiti yaradılanadək müvəqqəti bağlanmış 18 şəhər, kənd və qəsəbə klubu və 1 kitabxanadan 8 klub və 1 kitabxana üçün normal şərait yaradıldığı üçün fəaliyyəti bərpa edilmişdir.

Hesabat dövründə rayonda dövlət, peşə bayramlarına, tarixi hadisələrə və yubileylərə həsr olunmuş mədəni kütləvi tədbirlər keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 29 mart 2016-cı ildə Mədəniyyət və Turizm Nazirliyinin strukturunun təkmilləşdirilməsi haqqında sərəncamına əsasən Mədəniyyət və Turizm Nazirliyinin rayon şöbələri ləğv edilərək, əvəzinə bir neçə rayonun birləşdiyi regional mədəniyyət idarələri yaradılıb. Salyan daxil olmaqla Neftçala, Cəbrayıl rayon mədəniyyət və turizm şöbələrinin bazasında Biləsuvar Regional Mədəniyyət və Turizm İdarəsi yaradılmışdır.

Görülən işlərlə yanaşı, mədəniyyət sahəsində nöqsanlar da mövcuddur. Rayonda keçirilən mədəni kütləvi tədbirlər rayon İcra hakimiyyətinin təşəbbüsü ilə keçirilir. Mədəniyyət evlərinin və klubların fəaliyyəti qənaətbəxş deyildir. Bu müəssisələrdə çalışan ixtisaslı mədəniyyət işçiləri yox dərəcəsindədir. İşçilərin işə davamiyyəti zəifdir. Ərazilərdə mədəni kütləvi tədbirlər demək olar ki, yox dərəcəsindədir.

Rayonda Mədəniyyət mərkəzinin tikintisinə, mədəniyyət evlərinin və klubların, kənd kitabxanalarının əsaslı təmirə və lazımi inventarla təchiz olunmasına ehtiyac vardır.

Əhalinin fiziki sağlamlığı, idmanın kütləviliyi, uşaq, yeniyetmə və gənclərin idman sahəsində nailiyyətlər əldə etməsi istiqamətində müəyyən işlər görülmüşdür.

Rayonda boks, sərbəst güləş, sambo, cüdo, karate, kikboksinq, pauerliftinq, futbol, voleybol, stolüstü tennis və s. idman növləri ilə məşğul olunur. İdmançıların istifadəsində 179 idman qurğusu vardır.

İl ərzində 20 Yanvar şəhidlərinin xatirəsinə həsr edilmiş stolüstü tennis üzrə rayon birinciliyi və şahmat üzrə rayon turniri, 2 fevral - Gənclər Günü münasibətilə universal idman növü üzrə rayon birinciliyi, şəhid Fikrət Mustafayevin xatirəsinə həsr edilmiş şahmat üzrə rayon birinciliyi, Xocalı soyqırımının 24-cü ildönümünə həsr edilmiş kikboksinq idman növü üzrə açıq birincilik, 5 mart Bədən tərbiyəsi və İdman günü münasibətilə uşu üzrə birincilik, şəhid Həbib Qurbanovun xatirəsinə həsr olunmuş stolüstü tennis üzrə turnir, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibətilə futzal üzrə rayon çempionatı və s. yarışlar keçirilmişdir.

Ümumilikdə rayonda hesabat dövründə keçirilmiş 30 idman yarışında 2820 nəfər yeniyetmə və gənc iştirak etmişdir.

Rayon idmançıları respublika miqyaslı yarışlarda da iştirak etmişlər. Türkiyənin Sakarya şəhərində keçirilən cüdo üzrə VI beynəlxalq turnirdə Aidə Baxışova I, Murad Kərimov isə III yerə layiq görülmüşdür.

Bunlarla yanaşı, Gənclər və İdman İdarəsinin işində nöqsan və problemlər də mövcuddur. Rayonda gənclərlə iş, onların asudə vaxtının səmərəli təşkili üçün səy göstərilməmiş, tədbirlər dar çərçivədə keçirilmişdir. Gənclər və onların problemləri ilə bağlı məsələlərə zəif diqqət yetirilmiş, onların həlli istiqamətində lazımi təşəbbüs göstərilməmişdir. Rayonda Gənclər mərkəzinin tikintisinə ehtiyac vardır.

Rayon İcra hakimiyyəti rayondakı ictimai-siyasi vəziyyəti daim diqqət mərkəzində saxlayır. Rayonda fəaliyyət göstərən siyasi partiyaların, Qeyri-Hökumət Təşkilatlarının (İctimai Birliklər) və dini qurumların öz işlərini Azərbaycan Respublikasının qanunlarına müvafiq surətdə qurmalarına rayon İcra hakimiyyəti tərəfindən ciddi nəzarət edilir və əməli köməkliklər göstərilir. Rayonun ictimai-siyasi həyatında baş verən proseslər və tendensiyalar daim izlənilir.

Ardı 4-cü səhifədə

Salyan rayonunun 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunları və 2017-ci ildə qarşıda duran vəzifələr barədə rayon İcra Hakimiyyəti başçısının HESABATI

Əvvəli 3-cü səhifədə

Rayonda qeydiyyatdan keçmiş 17 siyasi partiya və 23 Qeyri Hökumət Təşkilatı fəaliyyət göstərir. Onların fəaliyyətlərinin "Siyasi partiyalar haqqında" və "Qeyri-Hökumət Təşkilatları (İctimai Birliklər və Fondlar) haqqında" Azərbaycan Respublikasının Qanunlarına uyğun surətdə qurulması rayon İcra hakimiyyətinin daim diqqət mərkəzində saxlanılmış, azad vətəndaş cəmiyyətinin qurulması işində onlara hər cür köməklik göstərilmişdir. Rayonda fəaliyyət göstərən Qeyri Hökumət Təşkilatları üçün müvafiq iş otaqları ayrılmışdır. Onlar rayon tədbirlərində yaxından iştirak edirlər. Hesabat dövründə Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət dəstəyi Şurasının tövsiyəsi ilə respublikamızda fəaliyyət göstərən bir sıra Qeyri Hökumət Təşkilatları tərəfindən maarifləndirici tədbirlər keçirilmişdir.

YAP rayon təşkilatı öz sıralarında 7456 üzvü birləşdirir. Partiya üzvləri rayonda keçirilən tədbirlərdə, siyasi kompaniyalarda yaxından iştirak edirlər.

Rayonda 50 məscid, 4 pir və 2 ziyarətgah fəaliyyət göstərir. Rayon İcra Hakimiyyəti başçısının yanında fəaliyyət göstərən Dini komissiyada qeydiyyatdan keçmək istəyən dini icmaların müraciətlərinə baxılaraq Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsinə göndərilir. Hazırda rayon üzrə 23 dini icma Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsində qeydiyyatdan keçmişdir.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasətin, regionlarda sosial-iqtisadi inkişafın konkret nəticələrinin dolğun işıqlandırılmasında, milli-mənəvi dəyərlərin təbliğ olunması işində yerli "Qələbə" və "Ana Kür" qəzetlərinin imkanlarından geniş istifadə olunur.

"Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramına əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 31 oktyabr tarixli sərəncamı və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 7 may tarixli Sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planının icrası ilə bağlı qarşıda duran vəzifələrin həyata keçirilməsi sahəsində rayonda bir sıra işlər görülmüşdür.

Hazırda rayon ərazisində 233 məcburi köçkün ailəsində 853 nəfər və 69 qaçqın ailəsində 281 nəfər məskunlaşmışdır. Rayonda məskunlaşmış, qaçqın və məcburi köçkünlərin sosial problemləri daim rayon icra hakimiyyətinin diqqətində saxlanılmış, ortaya çıxan problemlərin həlli üçün ardıcıl olaraq tədbirlər görülmüşdür. Belə ki, məcburi köçkünlərin əksəriyyəti işlə təmin olunmuşdur. Onlar əsasən rayonun idarə, müəssisə və təşkilatlarında, fərdi kommersiya sahələrində işləyir və bəziləri isə kənd təsərrüfatında mövsümi işlərdə çalışırlar.

Ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan və möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən daha da inkişaf etdirilmiş dövlət hakimiyyəti idarəetməsinin mühüm istiqamətlərindən biri vətəndaşların qəbulu, onların ərizə, şikayət və müraciətlərində qaldırılan problemlərin öyrənilməklə baxılması və əsaslandırılmış cavablar verilməsidir.

"Yerli icra hakimiyyəti orqanlarında vətəndaşların müraciətləri üzrə vahid elektron informasiya sisteminin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 29 aprel 2015-ci il tarixli 503 nömrəli Fərmanı bu sahədə ciddi intizamın yaradılmasına və "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu işin keyfiyyətinin daha da yüksəldilməsinə imkan vermişdir.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri cənab Ramiz Mehdiyevin 29 dekabr 2015-ci il tarixli 2/868 saylı məktubuna uyğun olaraq 2016-cı ilin ilk iş günlərindən başlayaraq yerli icra hakimiyyəti orqanlarına vətəndaşlardan və yuxarı dövlət orqanlarından, o cümlədən Prezident Administrasiyasından daxil olmuş müraciətlərin qeydiyyatı, dövriyyəsi, icrasına nəzarət edilməsi, təhlilinin aparılması və arxivləşdirilməsi yalnız informasiya sistemi vasitəsi ilə həyata keçirilmişdir.

Tapşırıqla əlaqədar olaraq rayon İcra Hakimiyyətində 2016-cı ilin yanvar ayından başlayaraq daxil olmuş müraciətlərin qeydiyyatı sistemə qoşulmaqla aparılmışdır.

2016-cı ildə Salyan rayon İcra Hakimiyyətinə 1204 ərizə, şikayət və təklif daxil olmuşdur.

Müraciətlər mahiyyəti üzrə araşdırılarkən onların böyük əksəriyyətinin yenə də mənzil məsələləri (204 müraciət və ya 16,9 %), torpaq məsələləri (194 müraciət və ya 16,1 %), sosial müdafiə məsələləri (184 müraciət və ya 15,3 %), şəhərsalma və tikinti məsələləri (142 müraciət və ya 11,8 %), şəhər, rayon icra hakimiyyəti və bələdiyyələrin fəaliyyəti (127 müraciət və ya 10,5 %) ilə əlaqədar olduğu aşkarlanmışdır ki, bu da ümumi müraciətlərin 70,7 %-ni (851 müraciət) təşkil etmişdir.

Daxil olmuş müraciətləri ilə əlaqədar vətəndaşlarla istər yaşayış yerlərində, istərsə də rayon İcra Hakimiyyətinə dəvət olunaraq görüşülmüş, müraciətləri dinlənilmiş və mümkün olan tədbirlər görülmüşdür. Daha ciddi araşdırma tələb edən müraciətlərlə əlaqədar vətəndaşların rayon İcra Hakimiyyəti başçısı tərəfindən qəbulu təşkil edilmiş və müraciəti icra hakimiyyəti başçısı səviyyəsində araşdırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından tədbir görülmək üçün rayon İcra Hakimiyyətinə 2016-cı ildə 363 ərizə göndərilmişdir.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından daxil olan müraciətlər mahiyyəti üzrə araşdırılmış və onların da böyük əksəriyyətinin mənzil məsələləri (123 müraciət və ya 33,9 %) və əmək və əhalinin sosial müdafiəsi məsələləri (91 müraciət və ya 25,0 %) ilə əlaqədar olduğu müəyyən edilmişdir.

Rayon İcra Hakimiyyətinin fəaliyyətinin əsasını təşkil edən prioritet sahələrdən biri də vətəndaşların qəbulu, onların müraciətlərinə vaxtında baxılmasıdır. Bu istiqamətdə işin səmərəliliyini artırmaq, vətəndaşlara müraciət etmələri üçün daha yaxşı şərait yaradılması məqsədilə İcra hakimiyyəti başçısının həftənin II və III günləri olmaqla 2 qəbul günü təşkil edilmişdir. Əgər həftənin III günləri qəbul rayon İcra hakimiyyətində aparılırsa, II günləri isə rayon İcra hakimiyyəti başçısı hər dəfə bir və ya bir neçə ərazi olmaqla bilavasitə yerlərdə səyyar qəbul keçirmişdir. Rayonun xidmət təşkilatı rəhbərlərinin iştirak etdikləri qəbullarda istənilən vətəndaşa heç bir məhdudiyyət qoyulmadan sərbəst müraciət etməsinə şərait yaradılmışdır.

2016-cı ildə ümumilikdə 6917 nəfər vətəndaş qəbul olunmuşdur. Rayon İcra Hakimiyyətinin başçısı tərəfindən isə 2690 nəfər vətəndaş qəbul edilmişdir.

Rayon İcra Hakimiyyəti başçısının III günlər keçirilən rəsmi qəbulunda 2233 nəfər vətəndaş qəbul edilmişdir.

Müraciətlər mövzular üzrə araşdırılarkən 988-nin (44,2%) sosial müdafiə məsələləri (612-i işlə təminat), 275-nin (12,3 %) mənzil məsələləri, 181-nin (8,1 %) enerji daşıyıcıları və su təchizatı məsələləri, 127-nin (5,7 %) səhiyyə məsələləri və sairlə əlaqədar olduğu müəyyən edilmişdir.

2016-cı ildə 45 kənd və 2 qəsəbədə rayon İcra Hakimiyyəti başçısının səyyar görüş-qəbulu keçirilmişdir.

Səyyar görüş-qəbullarda 4267 nəfər vətəndaş iştirak etmiş, onların 457 müraciəti dinlənilmiş və müraciətlərlə əlaqədar müvafiq tədbirlər görülmüşdür.

2016-cı ildə səyyar görüş-qəbullarda edilmiş 457 müraciətlə əlaqədar verilmiş tapşırıqdan 339-u (74,2 %-i) həll olunmuş və ya aidiyyəti üzrə baxılmaqla həll olunmaq üzrədir.

Salyan rayonunda 2016-cı ilin yanvar-dekabr aylarında rayonun iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri

Ərazi və əhali. 2017-ci ilin yanvarın 1-i vəziyyətinə Salyan rayonunun əhalisi ilkin hesablamalara görə 135.4 min nəfər olmuşdur və cari ilin 12 ayı ərzində 1680 nəfər və ya 1.3 faiz artmışdır. Cari ilin 12 ayında 2468 nəfər körpə dünyaya gəlmiş, ondan 1305 nəfəri oğlan və 1163 nəfəri qız olmuşdur. Rayonda cari ilin 12 ayı ərzində 940 nigah və 123 boşanma qeydə alınmışdır.

Makroiqtisadi göstəricilər

2016-cı ilin yanvar-dekabr aylarında Salyan rayonunda iqtisadiyyatın əsas sahələrində istehsal olunmuş məhsul və xidmətlərin həcmi əvvəlki ilin müvafiq dövrünə nisbətən 36907.1 min manat artaraq 283064.7 min manat təşkil etmişdir.

2016-cı ilin yanvar-dekabr aylarında sənayedə 64829.45 min manatlıq və ya ümumi məhsulun 22.9 faizi qədər, kənd təsərrüfatında 144195.0 min manatlıq və ya 50.9 faizi qədər, tikintidə 4457.9 min manatlıq və ya 1.6 faizi qədər, nəqliyyat və rabitədə 4483.3 min manatlıq və ya 1.6 faizi qədər, ticarətdə 65099.1 min manatlıq və ya 23.0 faizi qədər məhsul və xidmətlər istehsal olunmuşdur.

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" üzrə 2016-cı ilin IV rübündə Salyan rayonunda həyata keçirilməsi nəzərdə tutulan tədbirlərin icra vəziyyəti haqqında məlumat

Emal (o cümlədən, yem istehsalı, üzüm emalı) sənayesinin inkişafının dəstəklənməsi Rayonda qeyri neft sektorunun, o cümlədən kənd təsərrüfatının inkişaf etdirilməsi, yeni istehsal sahələrinin yaradılması istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir. Rayonda Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi Sahibkarlığa Kömək Milli Fondunun kreditləri və sahibkarların vəsaiti hesabına yeni istehsal və emal sənayesi sahələrinin yaradılması istiqamətində işlər aparılır. Belə ki, ölkə başçısı tərəfindən sahibkarlığın inkişafına yaradılmış münbit şəraitin nəticəsi olaraq rayonda "BRM üzüm" MMC, "Gilə"MMC, "Qaraçala" MMC, "Balacans" MMC, "Qarabağlı kooperasiya" və sair kimi iri təsərrüfatlar yaradılmışdır. Eyni zamanda Kürsəngi kəndində "NNEM Fermer təsərrüfatı "MMC tərəfindən illik istehsal gücü 100 min dekalitr olan şərab zavodunun və "Ələddin Fermer" MMC-nin illik istehsal gücü 600 ton olan meyvə qurutma müəssisəsinin, Qaraçala qəsəbəsində 2400 başlıq heyvandarlıq kompleksinin, Kür Qaraqaşlı kəndində "Nurgün Aqro" MMC-də 400 başlıq heyvandarlıq kompleksinin, "Yoluçka" tipli 20 başlıq müasir tələblərə cavab verən kompüterləşmiş sağım sexinin tikintisi başa çatdırılmışdır.

Cins heyvandarlıq, quşçuluq, taxılçılıq, pambıqçılıq, toxumçuluq, meyvəçilik, istixana şəraitində tərəvəzçilik və intensiv üzümçülük sahələrinin inkişafının dəstəklənməsi Heyvanların cins tərkibinin yaxşılaşdırılması məqsədi ilə 14 süni mayalama məntəqəsi fəaliyyət göstərir. Rayonda müasir tələblərə cavab verən quşçuluq təsərrüfatlarının yaradılması istiqamətində tədbirlər aparılır. "Salyan Broyler Quşçuluq" ASC-nin səhmləri Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən satışa çıxarılmışdır. Xələc kəndi ərazisində "Ranço" MMC quşçuluq müəssisəsi yaradılmışdır.

Rayonun yaşayış məntəqələrində modul tipli su təmizləyici qurğuların quraşdırılması Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı 20 iyun 2007-ci il tarixli "Əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılması ilə əlaqədar bəzi tədbirlər haqqında" Sərəncamına uyğun olaraq rayonun 41 yaşayış məntəqəsində modul tipli sutəmizləyici qurğular qurulub əhalinin istifadəsinə verilmişdir.

Rayon ərazisində kəndlərarası yolların tikintisinin, yenidən qurulmasının və əsaslı təmirinin davam etdirilməsi, o cümlədən Çuxanlı-Gəncəli-Piratman-Parça Xələc-Seyidan avtomobil yolunun yenidən qurulması Salyan şəhərinin "Babazanan" yaşayış massivini şəhərin mərkəzi ilə birləşdirən Kür çayı üzərində uzunluğu 199.9 metr, eni 14.5 metr olan yeni körpünün tikintisi başa çatdırılmışdır.

Şəhərdaxili yolların asfaltlaşdırılmasının davam etdirilməsi Şəhərin Ə.Hüseynov, A.Hüseynov, C.Cabbarov, Ə.Qasımzadə, M.Ağazadə, Y.Zərgərli küçələrində asfalt işləri qurtarmışdır.

Rayonun elektrik enerjisi təminatının yaxşılaşdırılması sahəsində müvafiq işlərin davam etdirilməsi, o cümlədən elektrik verilişi xətlərinin tikintisi və yenidən qurulması Rayon üzrə 32435 abonent elektrik enerjisindən istifadə edir.

1 ədəd 110 kv-luq, 17 ədəd 35 kv-luq və 267 ədəd - 10/6/0.4 kv-luq yarımstansiyalarda cari təmir işləri aparılmışdır. 492 ədəd güc transformatora 64,5 ton transformator yağı əlavə olunmuşdur.

373 yeni abonentə sayğac quraşdırılmışdır.

Rayonun qaz təchizatının yaxşılaşdırılması sahəsində müvafiq işlərin davam etdirilməsi . Bəydili kəndinin 88 evdən ibarət hissəsində qazlaşma işləri aparılaraq sona çatdırılmışdır. 88 mənzilə qaz sayğacı quraşdırılmışdır. Abadkənd kəndində 695 evdən ibarət qazlaşma işləri aparılaraq 650 mənzilə sayğac quraşdırılmış və "Azəriqaz" İB-nin nümayəndələrinin iştirakı ilə 2015-ci ilin avqust ayında həmin kənddə təbii qazın açılışı olmuşdur. Əhali istehlakçıları fasiləsiz, itkisiz, keyfiyyətli, təhlükəsiz və normal təbii qazla təmin olunmuşlar.

Salyan rayonu üzrə təbii qazla təmin olunan abonentlərin sayı 20323-ə çatmışdır. 966 yeni mənzil qazlaşdırılaraq qeydiyyata alınmış və istismara verilmişdir.

Rabitə və informasiya xidmətlərinin yaxşılaşdırılması sahəsində müvafiq işlərin davam etdirilməsi Rayonda əhalinin genişzolaqlı İnternet xidmətinə olan tələbatı nəzərə alınaraq şəhərin Mərkəzi EATSdə 1408 portluq, Plasmass yaşayış massivində əlavə 256 portluq "DESLAM" avadanlığı quraşdırılmışdır.

Dövlət Proqramı çərçivəsində görülən işlər: Rayon ərazisində 30 min ədəddən çox ağac əkilmişdir. Əkilən ağacların əksər hissəsini həmişəyaşıl ağaclar (eldar şamı, sərv, küknar) təşkil edir. Şəhər ərazisində YAP rayon şöbəsi üçün yeni inzibati binanın, X.R.Ulutürk küçəsində 4 mərtəbəli Biznes Mərkəzinin və 5 mərtəbəli yaşayış binasının tikintisi başa çatdırılmışdır. Ərazi Kənd Təsərrüfatı İdarəsi və Ələt-Astara yolunun 29,5-ci km-də BDYP-nin YPX üçün yeni inzibati binalarında son tamamlama işləri aparılır. Rayon Prokurorluğu və şəhər ərazisində 7 mərtəbəli yaşayış binasının tikintisi davam etdirilir.

Yeni iş yerləri. 2016-cı ilin IV rübündə açılmış yeni iş yerlərinin sayı 2381 vahid olmuşdur, bu da keçən ilin müvafiq dövründəkindən 4.5 dəfə (1802 vahid) çox olmuşdur.

Səhiyyə. Əhalinin sosial rifahını yaxşılaşdırmaq üçün Salyan rayonunda bir çox sosial təyinatlı obyektlər fəaliyyət göstərir.

Salyan rayonu əhalisinin sağlamlığını qorumaq məqsədi ilə rayonda 30 ambulator-poliklinika müəssisəsi, 7 xəstəxana fəaliyyət göstərir ki, onlarda 528 xəstəxana çarpayısı mövcuddur. Rayon əhalisinə 290 həkim və 795 orta tibb işçisi tibbi xidmət göstərir. Salyan rayon əhalisinin hər 10000 nəfərinə 21.7 həkim, 59.4 orta tibb heyəti, 39.5 xəstəxana çarpayısı düşür.

Mədəniyyət. 2016-cı il 01 yanvar vəziyyətinə rayon əhalisinə xidmət etmək üçün 43 klub müəssisəsi, 49 kütləvi kitabxana, 3 muzey və 1 teatr fəaliyyət göstərmişdir.

Kütləvi kitabxanalardan 3-ü şəhər yerində, 46-sı isə kənd yerlərində yerləşir. Kütləvi kitabxanalarda 496.9 min nüsxə kitab və jurnal mövcuddur ki, onlardan 412.3 min nüsxəsi kənd yerlərində olan kitabxanalarda, 84.6 min nüsxəsi isə şəhər yerlərində olan kitabxanalardadır.

Rayonda 3 muzey, 1 teatr fəaliyyət göstərir ki, muzeylərə gələnlərin sayı 43.1 min nəfər, teatra gələnlərin sayı isə 11.8 min nəfər olmuşdur.

Təhsil. 2015/2016-cı dərs ilinin əvvəlinə rayonda fəaliyyət göstərən 55 dövlət gündüz ümumtəhsil məktəbində 18155 şagird təhsil almış və ötən dərs ili ilə müqayisədə onların sayı 196 nəfər və ya 1.1 faiz artmışdır.

2015-ci ildə 1140 şagird məktəbi bitirmiş, 1140 şagirdin hamısı attestat almışdır ki, bunun da 314 nəfəri şəhər, 826 nəfəri isə kənd tam orta məktəblərini bitirənlər olmuşdur. Tam orta təhsil haqqında attestat alanlardan 82 şagird orta ixtisas təhsil müəssisələrinə, 344 şagird ali təhsil müəssisaələrinə qəbul olunmuşdur.

Hüquqpozmalar. 2015-ci ildə inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan əlaqədar orqanlar tərəfindən 6402 inzibati xəta aşkar edilmişdir ki, bu da 2014-cü ilə nisbətən 7.7 faiz çoxdur. Barəsində inzibati xətalar haqqında işlər üzrə qərar çıxarılmış şəxslərin sayı 6402 nəfər təşkil edir.

Pensiya təminatı. 2016-cı ilin yanvar ayının 1-i vəziyyətinə Dövlət Sosial Müdafiə Fondunun rayon şöbəsində 16669 nəfər pensiyaçı qeydiyyatda olmuşdur. Onlardan 10325 nəfəri yaşa görə, 4073 nəfəri əlilliyə görə, 2271 nəfəri ailə başçısını itirmiş pensiyaçılardır. Təyin olunmuş aylıq pensiyaların orta məbləği 156.32 manat olmuşdur.

Rayon Əhalinin sosial müdafiə mərkəzində 5594 nəfər sosial müavinət alan qeydə alınmış, 1 nəfərə düşən orta aylıq məbləğ 50.50 manat olmuşdur.

Ekologiya. Salyan rayonunun ümumi su istehlakı 296.53 milyon kubmetrdir və onun 62.1 faizi istifadə olunur. İstifadə olunmuş suyun 0.4 faizi məişət-içməli məqsədlərə, 99.6 faizi suvarmaya yönəldilmişdir. Götürülən suyun 112.49 milyon kub metri və ya 37.9 faizi nəql zamanı itirilmişdir.

Rayonda ümumi sahəsi 54.4 min hektar olan 1 milli park və sahəsi 4.7 min hektar olan 1 qoruq fəaliyyət göstərir və onların saxlanmasına çəkilən xərclər müvafiq olaraq 123.5 min manat və 21.7 min manat olmuşdur.

İdman. Hesabat dövründə rayonda 219 idman qurğusu fəaliyyət göstərirdi.Onlardan 2 ədəd 1.5 min və daha çox yer tutan stadion, 2 ədəd isə 1.5 mindən az yer tutan stadiondur. Rayon əhalisinin 23518 nəfəri və ya 17.6 faizi bədən tərbiyəsi ilə məşğul olur ki, bunun da 9149 nəfəri və ya 38.9 faizi qadınlardır.

Əmək bazarı. Salyan rayonunda işləyən və işsiz əhalini əhatə edən iqtisadi fəal əhali 2017-ci ilin 01 yanvar vəziyyətinə 73.9 min nəfər olmuşdur. İqtisadi fəal əhalinin tərkibində məşğulluq xidmətləri tərəfindən rəsmi işsiz statusu verilmiş işsizlərin xüsusi çəkisi 0.2 faiz olmuşdur.

Mənzil fondu və kommunal təsərrüfatının əsas göstəriciləri. 2016-cı ilin yanvarın 1-i vəziyyətinə rayonda ümumi sahəsi 1886.2 min kv.metr olan 24801 yaşayış evi mövcud olmuşdur.Orta hesabla hər yaşayan şəxsə düşən sahə 14.1 kvadrat metrdir.

Hesabat dövründə rayonda boru kəmərinin və küçə su kəmərinin uzunluğu 83.3 kilometr olmuşdur ki, bunun da hamısı şəhər yerindədir. Bütün istehlakçılara 739.3 min kubmetr su buraxılmışdır.Orta hesabla gün ərzində əhalinin hər nəfərinə verilmiş su 10.1 litrdir.

Sənaye. 2016-cı ilin yanvar-dekabr aylarında Salyan rayonunda qeydiyyatdan keçmiş 24 sənaye müəssisəsindən 17-si, yəni 70.8 faizi, 25 fiziki şəxsdən 22-i, yəni 88.0 faizi fəaliyyət göstərmişdir. Hesabat dövründə rayonun sənaye müəssisələrində məhsul istehsalının və xidmətlərin həcmi ilkin məlumatlara əsasən 64829.4 min manat olmuşdur.

Bitkiçilik. Salyan rayonunda 2016-cı ildə cəmi əkin sahəsi 46163 hektar olmuşdur.

Heyvandarlıq. Heyvandarlıq kənd təsərrüfatının mühüm sahəsidir və son illər sürünün cins tərkibinin yaxşılaşdırılması istiqamətində görülmüş müəyyən işlər məhsul istehsalına öz müsbət təsirini göstərmişdir.

Tikinti. 2016-cı ilin yanvar-dekabr aylarında Salyan rayonunda bütün mənbələr hesabına 77928.0 min manat kapitala investisiya yönəldilmişdir ki, bu da keçən ilin müvafiq dövründən 13563.1 min manat (14.8 faiz) azdır. Kapitala yönəldilmiş investisiyanın 74324.4 min manatı (95.4 faizi) dövlətə, 23603.6 min manatı (4.6 faizi) qeyri-dövlətə aiddir.

Nəqliyyat. Salyan rayonunda nəqliyyat təşkilatları 2016-cı ilin yanvar- dekabr aylarında 3899.0 min manat xidmət göstərmişdir. Bu da keçən ilin müvafiq dövründən 2.2 dəfədən (2266.2 min manat) çoxdur.

Rabitə. 2016-cı ilin yanvar-dekabr aylarında rabitə xidməti 584.3 min manat olmuşdur ki, bu da keçən ilin müvafiq dövründən 19.9 min manat (3.5 %) çoxdur .

Ticarət və ictimai iaşə. 2016-cı ilin yanvar-dekabr aylarında istehlak bazarında Salyan rayon əhalisinə satılmış istehlak malларının (206663.8 min manat),iaşə dövriyyəsi (6162.7 min manat) və göstərilmiş pullu xidmətlərin (53571.8 min manat) həcmi 18.1 faiz artaraq 266398.3 min manat olmuşdur.

Pullu xidmət. 2016-cı ilin yanvar-dekabr aylarında Salyan rayon əhalisinə 53571.8 min manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 14.7 faiz çox pullu xidmət göstərilmişdir.

Mehmanxana və mehmanxana tipli müəssisələrin fəaliyyəti haqqında. 2015-ci ildə rayon üzrə mehmanxana və mehmanxana tipli müəssisələrin sayı 2 ədəd olmuşdur. Müəssisələrdən biri 3 ulduzlu, digər isə yataqxana kimi fəaliyyət göstərmişdir.

Qiymət statiskası. Ərzaq məhsullarında mal ətinin, kərə yağının, günəbaxan yağının, buğda ununun, yumurtanın, şəkərin, kartofun, soğanın, pomidorun, xiyarın, almanın, göyərtinin qiymətində isə bahalaşma müşahidə olunmuşdur .Qeyri- ərzaq mallarında bahalaşma, Pullu xidmətdə isə qazın və elektrik enerjisinin qiymətində qalxma müşahidə olunmuşdur

Yanacaq, enerji təchizatı. 2016-cı ilin yanvar-dekabr aylarında dövlət büdcəsindən maliyyələşən istehlakçılar 100792.5 min kv saat elektrik enerjisindən, 297.2 min kub metr qazdan, 62.5 min kub metr sudan, 761.3 hiqakalori istilik enerjisindən və 49.9 min manatlıq rabitə xidmətlərindən istifadə etmişlər.

Hüseynqulu MƏNSİMOV,
Salyan rayon statistika idarəsinin rəis müavini.

Gənclər Günü qeyd edildi

Ölkəmizdə əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasəti bu gün daha qətiyyətlə davam etdirilir. İndi Azərbaycanın hər yerində gənclər öz bayramlarını böyük iftixarla, həmçinin qazandıqları uğurlarla qeyd edirlər.

Salyan rayonunun gəncləri də rayonun və respublikamızın ictimai-siasi həyatında yaxından fərqlənməklə bu əziz günü yüksək səviyyədə qeyd etməklə Ümummilli Liderin müəyyən etdiyi siyasətə sədaqətli olduqlarını nümayiş etdirirlər. 2 fevral - Gənclər Günü münasibətilə keçirilən tədbirdə RİH başçısı Sevindik Hətəmov, Şuranın üzvləri, rayonun ictimai-siyasi həyatında fərqlənmiş gənclər, müxtəlif sahələrdə salışan gənc mütəxəssislər, istedadlı yeniyetmələr iştirak etmişlər.

Tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin adını daşıyan parka gələrək onun abidəsi önünə tər gül-çiçək dəstələri düzmüş, xatirəsini yad etmişlər.

Rayon İcra Hakimiyyətinin akt zalında davam edən tədbirdə giriş nitqi ilə çıxış edən RİH başçısı Sevindik Hətəmov gəncləri təbrik edərək qeyd etmişdir ki, ölkəmizdə gənclər siyasətinin əsasını qoyan ümummilli liderimiz Heydər Əliyev gəncləri Azərbaycanın gələcək qurucuları adlandırır, onların imkan və bacarıqlarını yüksək qiymətləndirirdi. Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması bu sahədə mühüm tədbirlərin həyata keçirilməsinə geniş imkan verdi. Müstəqil Azərbaycan gənclərinin ilk ümumrespublika forumunun keçirilməsi, 2 fevralın Azərbaycan Gəncləri Günü elan edilməsi, Dövlət Proqramlarının qəbulu Heydər Əliyevin gənclərə böyük qayğısı idi.

Prezident İlham Əliyevin bu istiqamətdə qəbul etdiyi qərarlar, təsdiq etdiyi Dövlət Proqramları da uğurla icra olunur və öz müsbət nəticələrini verir. Dövlətimiz ölkəmizin sabahını etibar edəcəyi yeni nəslin hazırlanmasına, onların mənəvi cəhətdən saf, vətənpərvər, dövlətini və xalqını sevən vətəndaş kimi hazırlanmasına xüsusi önəm verir. Dövlətimiz gənclərin təhsili, ailə, məişət, məşğulluq məsələlərinin həllində mühüm rol oynayır.

Ötən ilin aprel döyüşlərində erməni işğalçılarının təcavüzünün qarşısının alınmasında Azərbaycan Milli Ordusunda təmsil olunan gənclərin qəhrəmanlıqları göstərdi ki, gənclərimiz Azərbaycanın müstəqilliyinin qorunmasında, torpaqlarımızın müdafiə edilməsində həmişə olduğu kimi öz sözlərini deməyə qadirdirlər.

Gənclər Gününə həsr olunmuş bayram tədbirində rayon gənclər və idman idarəsinin rəisi Araz Hüseynov, Arbatan kənd tam orta məktəbinin direktoru Aytən Ağalarova, Şəkərli kənd ümumi orta məktəbinin müəllimi Aytac Nəbiyeva, "N" saylı hərbi hissənin kapitanı Bəhruz Nuriyev, rayon mərkəzi xəstəxanası baş həkiminin müavini Nurlan Hüseynov, Xələc-2 kənd tam orta məktəbinin IX sinif şagirdi Ləman Hidayətova çıxış edərək gənclərə göstərilən diqqət və qayğıya görə ölkə başçısı möhtərəm Prezidentimiz cənab İlham Əliyevə dərin təşəkkür və minnətdarlıqlarını bildirmiş, çalışdıqları sahədə qazandıqları uğurlardan söz açmış, ölkəmizdə gənclər siyasətinin həyata keçirilməsi istiqamətində daha fəal iştirak edəcəklərini söyləmişlər.

Salyan rayon İcra Hakimiyyətində vətəndaşların qəbul günləri

S.H.Hətəmov rayon İcra Hakimiyyətinin başçısı	III gün-saat 11:00-dan başlayaraq;
E.Y.Hüseynov Başçının I müavini	I-V günlər-saat 15:00-dan başlayaraq;
T.T.İsmayılova Başçının müavini, sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri	II-IV günlər-saat 15.00-dan başlayaraq;
R.Y.Cəbrayılov Başçının müavini, ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri	I-IV günlər-saat 15.00-dan başlayaraq;
Ə.A.İsayev RİH başçısı aparatı ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri	I-VI günlər-saat 10:00-dan başlayaraq;
E.T.Hənifəli RİH başçısı aparatı hüquq şöbəsinin müdiri	I-V günlər-saat 10:00-dan başlayaraq;
T.S.Hüseynov RİH başçısı aparatı memarlıq və tikinti şöbəsinin müdiri	II-IV günlər-saat 10:00-dan öaşlayaraq
S.F.Məhərrəmov RİH başçısı aparatı sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri	I-II-IV-V-VI günlər saat 10.00-dan başlayaraq;

İlk Həmkarlar İttifaqı təşkilatlarında

Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin VI Plenumunun qərarına əsasən 2017-ci ilin fevral-mart aylarında şəhər, rayon birləşmiş həmkarlar ittifaqının birbaşa xidmətində olan ilk həmkarlar ittifaqı təşkilatlarında da hesabat-seçkilər keçirilir.

ADİİXİ Hİ Salyan rayon komitəsinin xidmətində olan 13 ilk həmkarlar ittifaqı təşkilatlarından bir neçəsində seçki keçirilmişdir. Keçirilmiş hesabat-seçkilərdə işçilərlə işəgötürülənlər arasında münasibətlər, əmək və sosial hüquqlarının təmin olunması və yaranan problemlərin həlli üçün görülən işlər geniş şəkildə müzakirə olunub. Keçirilmiş bütün yığıncaqlarda tərtib edilmiş Qrafik üzrə rayon komitəsinin Rəyasət Heyətinin üzvləri nümayəndə kimi iştirak ediblər.

Bu günlər belə bir hesabat-seçki yığıncağı Salyan rayon Statistika idarəsi həmkarlar ittifaqı komitəsində keçirildi. Öncə aprel 2014-cü il - yanvar 2017-ci il dövrü ərzində görülən işlərə həsr olunmuş hesabat məruzəsi dinlənildi. Məruzəçi Nizami Ağayev qeyd etdi ki, hesabat dövründə bağlanmış kollektiv müqavilə şərtlərinin yerinə yetirilməsinə ikitərəfli nəzarət edilmiş və əsasən yerinə yetirilmidir. İşçilərin iş şəraitləri tamamilə normativə uyğundur, iş yerlərində baş qaldıran problemlər müzakirə edilərək tez bir zamanda aradan qaldırılmışdır. Göstərildi ki, bütün işçilərin sosial qayğıları həmişə rəhbərliyin və həmkarlar komitəsinin diqqət mərkəzindədir. Bütün işçilərə 50, 60, 65, 70 və s. yubiley tarixlərində ADİİXİ Hİ Salyan rayon komitəsinin vəsaiti hesabına Fəxri Fərman verilir və suvenir hədiyyə ilə mükafatlandırılır.

Bununla yanaşı əmək haqqının artırılması, kurort və sanatoriyalara, istirahət evlərinə yollayışların azlığı diqqətdən yayınmadı. Qeyd edildi ki, birinci məsələnin həlli dövlət büdcəsi vəsaitinin həcmindən asılıdır. Yollayışlarla bağlı izah olundu ki, hesabat dövründə müraciət edən həmkarlar ittifaqı üzvlərimizin əksəriyyəti yollayışla təmin olunmuşdur. Lakin yollayışın vaxtının istədikləri vaxta olması bizdən asılı deyildir.

İclasda müzakirə olunan məsələlər barədə fikir mübadiləsi aparıldı. Nizami Ağayev yenidən həmkarlar komitəsinə sədr seçildi. ADİİXİ Hİ rayon komitəsinin may ayında keçiriləcək VI hesabat-seçki Konfransına 2 nəfər nümayəndə seçildi.

İclasda rayon həmkarlar ittifaqı komitəsinin sədri Hüseyn Ağayev iştirak və çıxış etmişdir.

İlk həmkarlar ittifaqı təşkilatlarında hesabat-seçkilər davam edir.

Salyan gəncləri uğurlarını artırır

Azərbaycan gənclərinin günümüzün müasir, inkişaf etmiş, yüksək intellektli aparıcı qüvvə kimi formalaşmasında, birmənalı olaraq dövlətimizin apardığı gənclər siyasətinin mühüm rolu olmuşdur. Bu siyasətin banisi isə xalqımızın ümummilli lideri Heydər Əliyevdir. Ulu öndər Heydər Əliyevin gənclər siyasəti əsrlər boyu xalqımızın malik olduğu millimənəvi dəyərlər əsasında, vətənpərvərlik, dövlətçilik, azərbaycançılıq prinsipləri və onların qorunması uğrunda mübariz ruhlu gənc nəslin yetişdirilməsindən ibarət olub. Əlbəttə, milli dövlətçiliyin möhkəmləndirilməsi və inkişaf etdirilməsi, demokratik cəmiyyət quruculuğu, siyasi, hüquqi və iqtisadi islahatların həyata keçirilməsi ilə bağlı Ulu Öndərin ideyaları və irəli sürdüyü prinsiplər Azərbaycanın hazırkı və gələcək inkişaf strategiyasının əsasını təşkil edir.

Prezident İlham Əliyevin gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, onların faydalı məşğulluğunun təmin edilməsi ilə bağlı imzaladığı Dövlət Proqramları, qanunlar və sərəncamlar təsdiq etmişdir ki, bütün bunlar gənclərə dövlət qayğısının artırılması məqsədilə xidmət edilmişdir. Ölkə Prezidentinin 2015-ci il 26 yanvar tarixli sərəncamı ilə təsdiq edilmiş "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" Azərbaycan gəncliyi üçün yeni səhifə açmışdır. Strategiyanın başlıca məqsədi kimi 2015-2025-ci illəri əhatə edən müddətdə Azərbaycan gəncliyinin potensialını müasir dövrün tələblərinə uyğun inkişaf etdirmək, həmin potensialdan Azərbaycan Respublikasının mənafeləri naminə istifadə etmək, yeni nəsildə fəal vətəndaşlıq mövqeyi formalaşdırmaq günümüzün prioritet məsələsi kimi göstərilmişdir.

Təkcə uğurla həyata keçirilən gənclər siyasəti deyil, bununla yanaşı, son zamanlarda ölkəizin mötəbər idman yarışlarına ev sahibliyi etməsi biz gəncləri sevindirməyə bilməz. 2015-ci il I Avropa Oyunları, ötən il keçirilən Formula-1 yarışları, 42-ci Ümumdünya Şahmat Olimpiadası və həmçinin bu il keçiriləcək IV İslam Həmrəyliyi Oyunları müasir Azərbaycanımızın regionda qüdrətini bir daha sübut etmiş və bununla da Azərbaycan dünya idman aləminin nəhəng mərkəzlərindən biri kimi mövqeyini yetərincə möhkəmləndirmişdir.

Ötən il XXXI Rio-2016 yay olimpiya oyunlarında Azərbaycan idmançılarının uğurlu çıxışı bir daha idmana dövlət səviyyəsində olan diqqət və qayğını göstərdi. Belə ki, idmançılarımızın uğurlu çıxışları nəticəsində XXXI rio-2016 yay olimpiya oyunlarında ümumilikdə 17 medal qazanılmışdır ki, onlardan 1-i qızıl, 7-si gümüş, 10-u isə bürünc olmuşdur. Medal sıralamasında ölkəmiz ümumi medal sayına görə 15-ci, medal əyarına görə 39-cu, islam ölkələri arasında 1-ci, MDB ölkələri arasında isə 6-cı yeri tutmuşdur.

Dövlət gənclər siyasəti respublikanın hər yerində olduğu kimi, Salyan rayonunda da inamla həyata keçirilir. Rayon rəhbərliyi tərəfindən gənclərə xüsusi diqqət və qayğı göstərilir. İdarə, müəssisə və təşkilatlarda gənc kadrlara xüsusi önəm verilir. Eyni zamanda, rayon idmanına da rayon rəhbərliyi tərəfindən xüsusi diqqət və qayğı vardır. Bütün bunlar biz gəncləri sevindirir və gələcəyə xoş ümidlə addımlamağa ruhlandırır. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və Salyan rayon İcra Hakimiyyəti başçısı tərəfindən razılaşdırılmış iş və tədbirlər planına əsasən Salyan rayon gənclər və idman idarəsi Dövlət Proqramlarını və Nazirlik tərəfindən verilmiş tövsiyələri rəhbər tutaraq 2016-cı il ərzində gənclərlə iş sahəsi üzrə 38, bədən tərbiyəsi və idman sahəsində isə 31 tədbir keçirmişdir.

Keçirilən tədbirlərdə azərbaycançılıq, vətənpərvərlik və dövlətçilik prinsiplərini rəhbər tutaraq əsas hədəflərimiz gənclərin hərbi vətənpərvərlik tərbiyəsi işinin gücləndirilməsinə, onların milli-mənəvi dəyərlərə hörmət ruhunda tərbiyə olunmasına, narkomaniya və digər zərərli vərdişlərlə mübarizəyə, istedadlı gənclərin aşkar edilməsinə, gənclərin sahibkarlıq fəaliyyətinin gücləndirilməsinə, gənclərin rayonun ictimai-siyasi həyatında fəal iştirakına və kütləvi bədən tərbiyəsi və idmanın inkişafına nail olmaqdır.

Araz HÜSEYNOV,
Gənclər və İdman idarəsinin rəisi.

"Ömrümün günəşi Vətənçün sönə..."

İlk baxışda yaşıdlarından heç nə ilə fərqlənməyən Ləman Hidayətovanı 2 fevral - Gənclər Günü münasibətilə Salyan rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilən bayram tədbirlərində tanış olduq. Doğrusu, RİH başçısı Sevindik Hətəmov çıxış edənlər sırasında Xələc-2 kənd tam orta məktəbinin IX sinif şagirdi Ləman Hidayətovaya söz verəndə o, "Ölkəmizi tanıyaq" layihəsinin iştirakçısı kimi tur təəssüratından danışdı, ucqar kənd məktəbi şagirdlərinin də belə tədbirlərdə iştirakına yaradılan şərait üçün ölkə başçısına və rayon rəhbərliyinə təşəkkürünü bildirdi. Geniş məlumatlılığı, nitqinin daha cəsarətliliyi ilə özünə diqqət çəkən bu məktəbli qız çıxışını sonda bir şeir parçası ilə yekunlaşdırdı. "Vətən" adlanan bu şeir iştirakçılar tərəfindən alqışlarla qarşılandı. Bu cəsarətdən ruhlanan məktəbli qız növbəti şeirini də səsləndirdi.

RİH başçısı Sevindik Hətəmov belə istedadlı gənclərə diqqət və qayğının artırılmasının vacib olduğunu qeyd etdi. Aidiyyati təşkilatlara, xüsusən rayonda nəşr edilən "Qələbə" qəzetinin rəhbərliyinə gənc istedadların fəaliyyətinin işıqlandırılmasına xüsusi fikir verməyi tövsiyə etdi...

Ləman Hidayətova ilə tədbirdən sonra yenidən görüşdük. Onu və məktəb direktoru Rəşad Zeynalovu redaksiyamıza dəvət etdik. Məktəb direktoru bildirdi ki, cəmi bir neçə aydır bu kollektivə rəhbərlik edir. İlk gündən də məktəbdə təhsil alan 320-dən çox şagirdin biliklərin əsaslarına dərindən yiyələnmələri və onların yaradıcı istedadlarının inkişaf etdirilməsi üçün var qüvvə ilə çalışdığını bildirdi. Direktor qeyd etdi ki, məktəbdə gənc rəssamlar, həmçinin poeziya ilə məşğul olan məktəblilər çoxdur. Ləman isə onlardan ən fəalıdır. Ləmandan poeziyaya, şeirə olan həvəsini soruşur, nə vaxtdan şeir yazdığı ilə maraqlanırıq. O isə cavab verir ki, ilk şeirimi 5-ci sinifdə oxuyanda yazmışam. "Uğrumuzda şəhid olan şəhidlər" şeirim o vaxt rayon təhsil şöbəsinin təşkil etdiyi şeir müsabiqəsində fərqlənmiş və Fəxri Fərmana layiq görülmüşdü. Novruz bayramı münasibətilə çəkdiyim rəsm də vaxtilə müsabiqədə fərqlənən işlərdən olub.

Ləman qeyd edir ki, ötən il sinif yoldaşı Aysel Mehdiyeva ilə "Ölkəmizi tanyıaq" layihəsi çərçivəsində Gəncə-Şəmkir-Göygöl turunda iştirak etmiş və burada fəal gənc kimi fərqləndiyinə görə sertifikata layiq görülmüşdür.

Ləmanın şeirlərini bir daha nəzərdən keçirdikdə hiss edirsən ki, bu yazıların əsasını Vətən və vətənpərvərlik, şəhidlərin müqəddəs həyatlarına bir ehtiram hissi təşkil edir. Tədris aldığı kənd məktəbi şəhid T.Şirinovun adını daşıyır. Aprel döyüşlərində erməni təcavüzkarlarının hücumlarını dəf edərkən qəhrəmancasına həlak olmuş Rəşid Mehdiyev məhz bu məktəbin məzunu olmuşdur. Hələ çox gənc olmasına baxmayaraq, Ləman da ölkəmizin igid oğulları kimi, "Vətən yolunda şəhid olmağa hazıram",-deyir.

Təbii ki, söhbətimiz Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə ordu quruculuğunun müasir vəziyyəti, Milli Ordumuzun bugünkü döyüş qabiliyyəti barədə düşür. Müsahibimə deyirəm ki, sizin kimi gənclər üçün bu gün əsas vəzifə tədris edilən fənləri daha dərindən mənimsəməkdir.

Ləman Hidayətovaya rayonda fəaliyyət göstərən "Kürün töhfəsi" ədəbi birliyi haqında məlumat verməklə ona öz yaradıcılıq nümunələri ilə burada fəal iştiraka dəvət edirəm. Hörmətli oxucularıma isə onun iki şeirini təqdim etməklə bildirirəm ki, biz bu imzanı çox tez-tez müxtəlif mətbuat orqanlarından oxuyacağıq. Gənc istedada uğurlar arzu edirik.

Vətən

Şirvan mahalının Salyan elində,
Fəxarət hissiylə yaşayıram mən.
Azərbaycan tək azad ölkədə,
Vətəndaş adını daşıyıram mən.

Vətən mənim canım, imzam, qolumdu,
Ömrümün günəşi Vətənçün sönə.
Zirvəyə aparan xoşbəxt yolumdu,
Bəxtəvər o kəsdir Vətənçün ölə.

Boldur Vətənimdə çörəyim, duzum,
Şükürlər Tanrıya bizi anıbdı.
Üçrəngli Bayrağım ayım, ulduzum,
Öndərin əliylə dalğalanıbdı.

Babamız Heydərdən bizə əmanət,
Bunun qiymətini bilməliyik biz.
İlham Heydər oğlu verib zəmanət,
Şad olub ürəkdən gülməliyik biz.

Məhsəti, Natəvan şöhrətim, şanım,
Onlardan qüvvəti alacağam mən.
Ləmanam, Vətənə qurbandır canım,
Ona layiq övlad olacağam mən.

Var

Şirvan mahalından Salyan elindən,
Yüzlərlə səmimi salamlarım var.
Müdrik insanların şəxsən dilindən,
Car olan müqəddəs kəlamlarım var.

Qarabağ üzərkən qanlar selində,
Təhməz sağındaydı, Vüqar solunda.
Təbrizlə Rəşidtək Vətən yolunda,
Fəxri xiyabanda yatanlarım var.

Könüllü gedərkən özü cəbhəyə,
Bəxş etdi ölümü quduz köpəyə.
Bayrağı ilk sancan Lələtəpəyə,
Elnurtək mərd, igid soltanlarım var.

Nizami, Nəsimi ulu babamdı,
Kəlbəcər, Zəngilan elim, obamdı.
Üçrəngli Bayrağım şalım, əbamdı,
Onun üzərində soy qanlarım var.

Ədalət Nəsibov dədə ozandı,
Bəhmən Vətənoğlu yaxşı yazandı.
Deyəsən şeirim bir az uzandı,
Mənim də beləcə yamanlarım var.

Rüstəm MƏLİKOV.

Dövlətin gənclər siyasəti əsas fəaliyyət proqramıdır

Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Salyan rayon həmkarlar ittifaqı komitəsinin 2 Fevral - Gənclər günü münasibəti ilə "Dövlətin gənclər siyasəti gənc üzvlərimizlə işimizin fəaliyyət proqramıdır" mövzusunda Dəyirmi Masa keçirmişdir.

Tədbiri rayon həmkarlar ittifaqı komitəsinin sədri Hüseyn Ağayev giriş sözü ilə açaraq Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1996-cı ildə Gənclərin I forumunun keçirilməsindən, məhz onun təşəbbüsü ilə 2 Fevral- Gənclər gününün təsis edilməsindən, hazırlanmış gənclər siyasətindən, bu gün gənclərə göstərilən dövlət qayğısından, həmçinin ölkə başçısı cənab İlham Əliyevin gənclərə diqqət və qayğısından, onun təsdiq etdiyi və uğurla həyata keçirilən gənclərlə bağlı dövlət proqramlarından, inkişaf strategiyasından danışmışdır.

Azərbaycan Veteranlar Şurası Salyan rayon təşkilatının sədri Vilayət Əsgərov çıxış edərək dövlətimizin gənclərlə bağlı siyasətindən, gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasından, gənclərə göstərilən dövlət qayğısından danışdı.

Salyan rayon həmkarlar ittifaqı komitəsinin Gender bərabərliyi, qadın, ailə və uşaq problemləri üzrə komissiyasının sədri Sədəf xanım Nəcəfova, rayon həmkarlar ittifaqı komitəsinin Gənclərlə iş komissiyasının sədri Fazil Məhərrəmov, rayon həmkarlar ittifaqı komitəsinin Rəyasət Heyətinin üzvü Mirtəbib Ağayev çıxış edərək dövlətimizin gənclərə göstərdiyi diqqət qayğıdan danışdılar.Çıxış edənlər bildirdilər ki, bu gün azərbaycan gəncliyi öz uğurları ilə hər bir sahədə ölkəmizi bütün dünyaya tanıtmışdır. Bunlar hörmətli Prezidentimiz cənab İlham Əliyevin Azərbaycan gəncliyinə göstərdiyi xüsusi qayğının nəticəsidir.

14 nəfər gənc üzvə Fəxri Fərman və hədiyyələr təqdim edilmişdir.

Xocalı soyqırımının iyirmi beşinci ildönümünün keçirilməsi ilə bağlı rayon İcra Hakimiyyətinin Tədbirlər Planının təsdiq edilməsi barədə Salyan rayon İcra Hakimiyyəti başçısının sərəncamı

1. Rayonda Xocalı soyqırımının iyirmi beşinci ildönümünün keçirilməsi ilə bağlı rayon İcra hakimiyyətinin Tədbirlər Planı Təsdiq edilsin (əlavə olunur).

2. Rayon İcra hakimiyyəti başçısı aparatının şöbələrinə, idarə, müəssisə və təşkilat rəhbərlərinə tapşırılsın ki, Tədbirlər Planında nəzərdə tutulmuş işlərin icrasını təmin etsinlər.

3. Sərəncam rayon "Qələbə" qəzetində dərc edilsin.

4. Sərəncamın icrasına nəzarət rayon İcra hakimiyyəti başçısının I müavini E.Hüseynova tapşırılsın.

Sevindik HƏTƏMOV,
Salyan rayon İcra Hakimiyyətinin başçısı.

Xocalı soyqırımının iyirmi beşinci ildönümünün keçirilməsinə dair Salyan rayon İcra Hakimiyyətinin TƏDBİRLƏR PLANI

Sıra sayı-1; Tədbirin adı-Rayon "Qələbə" qəzetində Xocalı soyqırımına həsr olunmuş materialların dərc edilməsi; İcra vaxtı-Fevral 2017-ci il; İcraya məsul-R.Cəbrayılov, R.Məlikov.

2. Rayonun bütün təhsil və mədəniyyət müəssisələrində Xocalı soyqırımının iyirmi beşinci ildönümünə həsr edilmiş fotomontaj, stend və guşələrin təşkil edilməsi; 13-25 fevral 2017-ci il; R.Cəbrayılov, X.Piriyev, T.Cavadov, R.Dadaşova.

3. Xocalı soyqırımını əks etdirən məlumatların internet şəbəkəsinə daxil edilməsi və mütəmadi olaraq yeniləşdirilməsi; 13-26 fevral; 2017-ci il; R.Cəbrayılov, A.Babayev, Ş.Əbilov.

4. Rayonun inzibati ərazi dairələri üzrə nümayəndəliklərində, təhsil müəssisələrində, idarə, müəssisə və təşkilatlarında Xocalı soyqırımına həsr edilmiş müxtəlif tədbirlərin keçirilməsi;13-25 fevral 2017-ci il; E.Hüseynov və RİH başçısı aparatının şöbələri.

5. Rayon Mərkəzi Kitabxanasında "Xoca" və "Dolu" filmlərinə baxış keçirilməsi; 15-20 fevral 2017-ci il; T.Cavadov, S.Əliyeva.

6. Dövlət Rəsm Qalereyasında soyqırıma həsr olunmuş "Qanlı faciəyə siz də baxın" mövzusunda sərginin təşkil olunması; 15-26 fevral 2017-ci il; T.Cavadov, İ.Mustafayev.

7. Rayon Tarix-Diyarşünaslıq muzeyində Xocalı soyqırımına həsr edilmiş foto-sərginin və filmin nümayiş etdirilməsi; 16-24 fevral 2017-ci il; R.Cəbrayılov, T.Cavadov, R.Ağabəyova.

8. Xocalı soyqırımının iyirmi beşinci ildönümünə həsr edilmiş qol güləşi üzrə yeniyetmə və gənclər arasında rayon birinciliyinin keçirilməsi; 16 fevral 2017-ci il; R.Cəbrayılov, X.Piriyev, A.Hüseynov.

9. Xocalı soyqırımının iyirmi beşinci ildönümü ilə əlaqədar rayon Təhsil şöbəsinin Gənclər və İdman İdarəsi ilə birgə təşkil etdiyi "Harayımız" devizi altında şeir və rəsm müsabiqələrinin keçirilməsi; 22 fevral 2017-ci il; R.Cəbrayılov, X.Piriyev, A.Hüseynov.

10. Xocalı soyqırımının iyirmi beşinci ildönümü ilə əlaqədar YAP rayon təşkilatında, rayon Mərkəzi Xəstəxanasında, rayon Təhsil şöbəsində fəaliyyət göstərən Heydər Əliyev məktəblərində "Xocalı soyqırımına hüquqi-siyasi qiymət verilməsində ümummilli liderimiz Heydər Əliyevin rolu" mövzusunda məşğələlərin keçirilməsi; 21-23 fevral 2017-ci il; R.Cəbrayılov, M.Mirzəyev, H.Həsənov, X.Piriyev;

- YAP rayon təşkilatı; 21 fevral saat 11:00; R.Cəbrayılov, M.Mirzəyev;

- Mərkəzi Rayon Xəstəxanası; 23 fevral saat 10:00; R.Cəbrayılov, H.Həsənov;

- Rayon Təhsil şöbəsi; 23 fevral saat 11:00; R.Cəbrayılov, X.Piriyev.

11. Q.Əsgərov adına İncəsənət məktəbində "Faciəyə gedən yol" mövzusunda ədəbi-bədii kompozisiyanın keçirilməsi; 23 fevral 2017-ci il; saat 15:00; R.Cəbrayılov, T.Cavadov, A.Əliyeva.

12. Rayonun bütün təhsil müəssisələrində ilk dərslərin Xocalı soyqırımına həsr edilməsi; 24 fevral 2017-ci il; R.Cəbrayılov, X.Piriyev, R.Dadaşova.

13. Salyan Olimpiya Kompleksində Xocalı soyqırımının iyirmi beşinci ildönümünə həsr edilmiş cüdo idman növü üzrə yeniyetmə və gənclər arasında rayon birinciliyinin keçirilməsi; 25 fevral 2017-ci il; R.Cəbrayılov, A.Hüseynov, X.Piriyev.

14. Rayon İcra Hakimiyyəti, idarə, müəssisə və təşkilatların kollektivləri və ictimaiyyətin nümayəndələri tərəfindən "Şəhidlər" xatirə kompleksinin ziyarət edilməsi; 25 fevral 2017-ci il; E.Hüseynov və RİH başçısı aparatının şöbələri.

15. 26 fevral saat 17:00-da bütün rayon ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi; 26 fevral 2017-ci il; saat 17:00; E.Hüseynov və RİH başçısı aparatının şöbələri.

16. Xocalı soyqırımı günü ilə əlaqədar şəhər, qəsəbə və kəndlərdə Azərbaycanın dövlət bayraqlarının endirilməsi; 26 fevral 2017-ci il; E.Hüseynov və RİH başçısı aparatının şöbələri.

1992

Xocalı soyqırımından 25 il keçir
Xocalı qan yaddaşımıza həkk olunmuş dərin yaramızdır

2017

Xocalı faciəsindən 25 il keçsə də, qəlbimizi göynədən, ürəyimizin başına, ruhumuza iynə kimi sancılan bu misli görünməmiş dəhşətli hadisə bir an belə yaddaşımızdan silinməmiş, bu soyqırımı aktını törədənlərə olan nifrətimiz zərrə qədər də azalmamış, əksinə, zaman keçdikcə daha da güclənməkdədir.

1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə erməni faşistləri Xocalıya hücum edərək tariximizə qanlı hərflərlə yazılmış Xocalı soyqırımını törətdilər. Amansızlığına görə dünya tarixində törədilmiş Ən qəddar cinayətləri belə üstələyən bu soyqırımı aktı təkcə Azərbaycan türklərinə qarşı deyil, bütövlükdə, insanlığa, bəşəriyyətə qarşı törədilmiş ən ağır cinayət idi. Xocalının mühasirəyə alınaraq mülki şəxslərin şəhəri tərk etməsinə imkan verilməməsi ermənilərin əsl niyyətini, iç üzünü açıb göstərir.

O qanlı fevral gecəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olmaqla 613 nəfər Xocalı sakini qətlə yetirildi, 8 ailə tamamilə məhv edildi, 1.275 nəfər Əsir, 150 nəfər isə İtkin düşdü. Öldürdükləri uşaqların, qadınların cəsədlərini tanınmaz hala salmaq qədər alçaq mənəviyyata və xəstə təfəkkürə malik olan ermənilər bəşər tarixinin öz adlarına əbədi şərəfsizlik gətirən soyqırımı aktına imza atdılar. Bu ölkənin həkimi də, yazıçısı da, müəllimi də, prezidenti də, digər peşə sahibləri də Xocalı soyqırımı və bütövlükdə, Qarabağın işğalında iştirakçıya çevrildilər.

Xocalı soyqırımının insanlıq əleyhinə törədilmiş cinayət kimi tanıdılmasının təkcə Azərbaycan üçün deyil, həm də dünya üçün önəmli rolu vardır. Bu baxımdan ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü ilin fevralında Azər-

baycan Respublikasının Milli Məclisi tərəfindən Xocalı hadisələrinin soyqırımı elan olunması xüsusi əhəmiyyətə malik oldu. Həmin tarixdən etibarən Xocalı faciəsi insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi daha geniş miqyasda anılmağa başlandı. Ümummilli liderimizin Xocalı faciəsi ilə bağlı dediyi sözləri yadımıza salaq: "Bütövlükdə, Azərbaycan xalqına qarşı yönəldilmiş soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır. Bu soyqırımı, eyni zamanda, bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir".

Bu gün Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması prosesində Xocalı soyqırımının tanıdılması xüsusi yer tutur. Dövlət başçımız çıxışlarında dəfələrlə Xocalı faciəsinə toxunaraq, bu hadisəni törədənlərin əsl niyyətlərini, bəşəriyyətə qarşı törədilmiş bu dəhşətli cinayətin mahiyyətini açıq şəkildə ifadə etmişdir.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci ildən uğurla həyata keçirilən "Xocalıya ədalət" beynəlxalq kampaniyası artıq öz bəhrələrini verməkdədir. Kampaniya çərçivəsində dünyanın bir çox ölkələrində Xocalı faciəsinə həsr olunmuş tədbirlərin keçirilməsi əsl həqiqətlərin, Ermənistan tərəfindən ölkəmizə qarşı aparılan təcavüzkar siyasətin ma-

hiyyətinin beynəlxalq ictimaiyyətə çatdırılmasında önəmli rol oynamaqdadır. "Xocalıya ədalət" kampaniyasının ən uğurlu nəticəsi bu faciənin Pakistan, Meksika, Peru, Çexiya, Kolumbiya, Honduras, Bosniya və Herseqovina kimi dövlətlərin parlamentləri, eləcə də bir çox beynəlxalq təşkilatlar tərəfindən soyqırımı aktı kimi tanınması olmuşdur. Eyni zamanda, dünyanın bir çox şəhərlərində dünya xalqlarının soydaşlarımıza qarşı törədilmiş soyqırımı aktı haqqında məlumatlandırılması məqsədilə Xocalı şəhidlərinin xatirəsini əbədiləşdirən abidələr ucaldılmaqdadır. Kampaniyanın Xocalı faciəsini soyqırımı aktı və insanlığa qarşı cinayət kimi tanınması ilə bağlı müraciətini artıq bütün dünyada on minlərlə insan imzalayıb.

Təzyiqlərə baxmayaraq, ölkəmizin bütün sahələrdə dinamik inkişafa nail olması və regionun lider dövlətinə çevrilməsi həm də Qarabağ münaqişəsinin Azərbaycanın milli maraqları çərçivəsində həllini yaxınlaşdırır. Dağlıq Qarabağ probleminin həlli məsələsində xalqımızın haqlı mövqeyə malik olması onun üstün cəhətidir. Əgər sülh yolu ilə torpaqlarımızı azad etmək mümkün olmasa, gücdən istifadə etmək kimi beynəlxalq hüququn prinsipləri Azərbaycana istənilən yolla öz torpaqlarını azad etmək, öz sərhədləri daxilində ərazi bütövlüyünü bərpa etmək imkanı yaradır.

Azərbaycanın qüdrətli və nizami orduya malik olması, Qarabağ probleminin həlli yolunda dövlətin və xalqın yekdil fikir nümayiş etdirməsi isə torpaqlarımızın düşmən tapdağından azad ediləcəyi günün heç də uzaqda olmadığından xəbər verir.

Erməni təxribatının qarşısını qətiyyətlə alaraq bir neçə strateji yüksəkliyi, 2 min hektara qədər torpaqlarımızı düşmən əsarətindən azad edən Azərbaycan Ordusunun gücünü, qüdrətini bütün dünya gördü. Dünyaya o da məlum oldu ki, "məğlubedilməz", "qarşısıalınmaz" kimi təbliğ olunan Ermənistan ordusu dünyanın ən güclü ordularından biri olan Azərbaycan ordusundan qat-qat zəifdir. Ən müasir silahlarla təchiz olunmuş Azərbaycan Ordusu artıq tarixə düşmüş aprel döyüşlərində bu silahların yalnız bir qismindən istifadə etmişdi.

Məlum olduğu kimi, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin yanvarın 24-də imzaladığı sərəncama əsasən Cəbrayılın Cocuq Mərcaqlı kəndində yaşayış evlərinin inşası və zəruri infrastrukturun yaradılması işlərinə başlanılmışdır. Bu, düşmən işğalında olan torpaqlarımıza, o cümlədən Xocalıya olacaq böyük qayıdışın başlanğıcıdır. Ölkə başçımızın bu sərəncamından Ermənistanda bərk qorxuya, vahiməyə düşmüşlər.

İşğal altında olan digər yurd yerlərimizin də bərpası ilə bağlı müvafiq sərəncamların olacağını ermənilər də yaxşı anlayır və təsdiq edirlər.

Aprel döyüşlərində ölkəmizin başçısının, Ali Baş Komandanımızın xalqımıza bəxş etdiyi tarixi, şanlı qələbənin davamının olacağına, doğma Qarabağımızın azad olunacağı günün tezliklə yetişəcəyinə hər bir azərbaycanlı möhkəm inanır.

Ə.MƏMMƏDLİ.

Böyük Qayıdışın başlanğıcı

Ötən ilin aprel ayında Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu əks-hücum hərbi əməliyyatı nəticəsində erməni işğalından azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində insanların təhlükəsiz yaşaması mümkün olmuşdur. Bununla da, tarixən burada yaşamış dinc əhalinin öz doğma yurdlarına qayıtması üçün Azərbaycan Silahlı Qüvvələrinin tam nəzarətinə keçmiş həmin ərazilərdə əsaslı yenidənqurma işlərinin başlanmasına şərait yaranmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "İşğaldan azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı tədbirlər haqqında" 24 yanvar 2017-ci il tarixli sərəncamından

Cocuq Mərcanlıya doğru

24 il. Bir qənirəyə nə qalır ki... Bu illərdə sənə yaxın olub uzaqdan-uzağa doğulub boya-başa çatdığın dədə-baba yurduna, ocağına ayaq basa bilməyəsən, ona həsrətlə baxasan. Bu, həyatda ən böyük işgəncədir insan üçün. Minlərlə öz doğma ocaqlarından pərən-pərən düşmüş qaçqın və məcburi köçkünlər kimi Cəbrayılın Cocuq Mərcanlı kəndinin sakinləri də bir addımlıqda olan doğma torpağa ayaq basa bilmirdilər. Çünki yaxınlıqdakı yüksəkliklər qəvi düşmənlərin əlində idi. Sakinlər dözür, öz qaçqın taleləri ilə barışırdılar. Illərlə yurd, torpaq həsrətinin ağrı-acısını yaşasalar da, inamlıydılar, ümidliydilər…

Prezidentimizin məlum sərəncamından sonra "Space" teleşirkətindən Cocuq Mərcanlıya getmək, oradan süjet hazırlamaq və süyeti axşam buraxılışına çatdırmağımız tapşırığını aldım. Artıq günorta saat on ikini ötmüşdü. Bu tapşırığı yerinə yetirə biləcəkdikmi. Yol uzaq, vaxt isə az. Nə etməli?...

Artıq yoldayıq. Cocuq Mərcanlıya doğru gedirik. Dəqiqələr, saatlar ötdükcə Cocuq Mərcanlı ilə bizi ayıran məsafə də azalırdı. Bu da Horadiz qəsəbəsi. Yolun istiqamətini göstərsələr də, hiss edirdim ki, bələdçisiz ora gedib çıxa bilməyəcəyik. Elə bu vaxt orta boylu bir kişi yaxınlaşıb məhrəmanə:

-Olar, mən də sizinlə gedim.-dedi.-Tək getsəniz, ermənilərin əlinə keçərsiniz.

Bu bizim üçün elə bil göydəndüşmə oldu. Mirzəqulu Əbdüləzimov,-deyə tanışlıq verib maşınımıza əyləşdi. Məlum oldu ki, Mirzəqulu Füzulidəndir, Horadiz qəsəbəsində elektrik şəbəkəsində işıq nəzarətçisi işləyir. Elə biz getdiyimiz kəndə də o, baxır. Narahat olmayın, hara istəsəniz ora aparacam,-deməsi bizi lap ürəkləndirdi. Bələdçimizin inamla deməsi bizi daha da həvəsləndirmişdi. Onu da bilirdim ki, kənddə yeganə bir ailə yaşayır, Oqtay Həziyevin ailəsi. O ailə ilə vacib görüşməli idik.

...Artıq uzaqdan Cocuq Mərcanlı kəndi görünür...

Yaxınlaşdıqca uçulub-dağılmış divarlar, viranə qalmış evlər görünür. Bu mənzərəyə baxmaq isə ürəkağrıdıcı idi.

Cocuq Mərcanlı-Cəbrayıl rayonu Çaxırlı inzibati ərazi vahidliyində kənd. Yerli ləhcədə "Cojux Mərcannı" kimi tələffüz edilir.

Yaşayış məntəqəsi XIX əsrdə Cavadağa Cavanşirə məxsus ərazidə salınmışdır. Mərcanlı tayfa adını özündə əks etdirir. Burada cocuq sözü yaşayış məntəqəsini Böyük Mərcanlı kəndindən fərqləndirməyə xidmət edir. İşğaldan əvvəl ümumi sahəsi 1605 hektar olan kənddə 1134 hektar kənd təsərrüfatına yararlı sahə, 368 hektar isə əkin yeri olub. 24 il əvvələdək burada 283 evdə 1075 nəfər əhali yaşayırdı.

Əhalisi əsasən üzümçülük, taxılçılıq, heyvandarlıq və baramaçılıqla məşğul olan kəndin

ərazisində orta məktəb, klub, kitabxana, feldşer-mama məntəqəsi, poçt, icra nümayəndəliyi, un dəyirmanı, kolxozun inzibati binası, qaramal və qoyunçuluq fermaları, anbar binası mövcud olub. Hazırda Cocuq Mərcanlı kəndi üzrə 395 ev təsərrüfatı və 1428 nəfər əhali daimi qeydiyyatdadır. Respublikanın 17 şəhər və rayonunda məskunlaşan sakinlərin əksəriyyəti (172 ailə - 635 nəfər) Biləsuvar rayonu ərazisində salınmış məcburi köçkün qəsəbələrində yaşayır.

Savaşın ilk günlərindən Cocuq Mərcanlı kəndi qaynar döyüş məskəninə çevrilib. 1993-cü il avqustun 23-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilən kənd ulu öndər Heydər Əliyevin döyüş bölgəsinə gedərək orduda güclü ruh yüksəkliyi yaratması nəticəsində 1993-cü ilin dekabrında başlamış, 1994-cü il yanvarın 6-na kimi davam etmiş uğurlu Horadiz əməliyyatı zamanı işğaldan azad olunmuşdu. O qanlı döyüşlərdə kənd yerlə-yeksan edilmişdi. Bütün inzibati binalar, fərdi yaşayış evləri dağıdılaraq xarabazara çevrilmişdi. Daşı daş üstündə qalmamışdı. Ətraf yüksəkliklər düşmən nəzarətində olduğundan kənddə yaşayış olmamışdı. Sakinlərin yaxın sandıqları doğma kənd onlardan uzaq qalmışdı. Yurd ağrısı içlərini göyümgöyüm göynədib yandırmışdı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 24 yanvar 2017-ci il tarixdə "İşğaldan azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı tədbirlər haqqında" sərəncam imzaladı. Sərəncama əsasən, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı görüləcək işlər çərçivəsində birinci mərhələdə 50 fərdi yaşayış evinin, məktəb binasının və müvafiq infrastrukturun tikintisi üçün Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan bu iş üçün ilkin olaraq 4 milyon manat ayrıldı.

Ekspertlərin fikrincə, məcburi köçkünlərin doğma yurd-yuvalarına qayıtması Böyük qayıdışın başlanğıcı olmaqla, həm də prezidentin Ermənistan rəhbərliyinə ciddi mesajı idi.

Qəhrəman ailə ilə görüş

Aprel döyüşlərindən əvvəl indi dillər əzbəri olan "Lələ təpə" yüksəkliyi azad olunmamışdı. Amma buna baxmayaraq, kəndin qərb hissəsinin 750 metrlik məsafəsində Oqtay Həziyevin 7 nəfərlik ailəsi ölümü göz önünə alıb burda yaşayırdı. Burada özünə təsərrüfat yaratmışdı. Düşmən güllələrinə də tuş gəlmişdi. Amma doğulduğu bu kənddən ayrılmamışdı. Onunla görüşüb söhbət etməyi çox arzulayırdıq. Onunla görüşmək bizə nəsib olmasa da oğlu, ailəsi ilə həmsöhbət olduq. Təsadüfən həmin gün Minayə Həziyeva da qardaşı evinə qonaq gəlmişdi. Yaşı elə çox olmasa da, yurd həsrəti onun qəddini əymişdi, qocaltmışdı... Minayə xanımla söhbət etdikcə illərin həsrətindən yorulan gözlərindən sevinc yaşı axırdı.

Minayə Həziyeva:-Biləsuvarda qaçqın şəhərciyində yaşayıram. Kəndimiz üçün burnumun

ucu göynəyirdi. Elə hey yuxularımda görürdüm kəndimizi. Gələ bilmirdik ocağımıza. Hələ də gördüklərimə inana bilmirəm. Elə bilirəm yuxudayam. İnana bilmirəm ki, doğulub boya-başa çatdığım, suyunu içib çörəyini yediyim, uşaqlığımı, gəncliyimi keçirtdiyim doğma kəndimdəyəm. Elə bilirdim bir daha görə bilməyəcəyəm kəndimizi. Nə deyim, qardaş. Allah Prezidentimizi qorusun! Allah ömrünü uzun eləsin! Duaçıyıq Prezidentimizə.

Sonra üz tutduq Cocuq Mərcanlı kəndinə. Kənddən xeyli aralıda Lələtəpə yüksəkliyi, bir də o yüksəklikdə ucalan üçrəngli bayrağımız görünür, dalğalanırdı. Biz də qəlbimizdə qürur hissi keçirir, Ali Baş Komandanımıza, mərdmətn qəhrəman oğullarımıza minnətdarlıq duyğularımızı bildirirdik.

Kənddə ANAMA-nın əməkdaşları minaların axtarışı, təmizlənməsi ilə məşğul idi. Çəkiliş aparmaq üçün hərəkət edəcəyimiz istiqaməti göstərməli idilər. ANAMA-nın yerli nümayəndəsi ilə görüşüb çəkilişə başladıq. Operatorumuz Vüqar Qaliboğlu gördüklərini bir-bir kameranın yaddaşına köçürür, ən xırda detal belə gözlərindən yayınmırdı. Elə bu zaman diqqətimizi bir mənzərə cəlb etdi. 40-45 yaşlı bir kişi dağıdılmış fərdi yaşayış evinin divarlarını qucaqlayaraq üzünü soyuq daşlara sürtür, kimsə görməsin deyə o daşları öpə-öpə, için-için hıçqırırdı. Ona yaxınlaşmadıq. Qoy ürəyini boşaltsın, bu həsrət yanğısına son qoysun-deyə ürəyimizdən keçirtdik. Həmin kişi otağa keçdi, diz çöküb başını aşağı əydi. Bir müddət beləcə tərpənməz olaraq qaldı. Handan-hana ayağa qalxıb geri dönmək istəyərkən bizi görüb duruxdu. Üzünü yana çevirib gözlərinin yaşını sildi. Yaxınlaşıb hal-əhval tutduq. Adını, soyadını soruşduq. Məhəmməd Mirzəliyev,-dedi.

-Bu bizim evdir-deyə söhbətə özü körpü saldı. -Ən xoş günlərimizi burda yaşamışıq. Evimizi belə vəziyyətdə görəndə dözə bilmədim. Eh…Məhəmməd suçlu adamlar kimi başını aşağı saldı. Və sonra "Ölmədik, axır ki, bu günü də gördük. Uçulub-dağılsa da, öz evimizi gördük,-dedi. -Borcluyuq, çox borcluyuq buna görə Prezidentimizə. Bu günü görməyi o, nəsib elədi bizə.

12-13 yaşlı oğlan uşağı bizə tərəf gəlirdi.

-Oğlumdur, Azadxandır adı,-Məhəmməd dedi.-İlk dəfədir ki, kəndimizi görür.

Azyaşlı Oğlanla məhrəmləşdik, doğmalaşdıq bir anda. Sazda "Yanıq Kərəmi"ni çaldı. Yaman göynətdi bizi bu hava. Məhəmməd kişi doğma kəndinə baxıb fikirlərə qərq olmuşdu.

Bərpa işlərinə hazırlıq

Cocuq Mərcanlı kəndinin qısa müddətdə yenidən qurulacağına şəkk-şübhə yox idi. ANAMA-nın əməkdaşları təhlükəli əraziləri ələ, itlə və texnika ilə qarış-qarış yoxlayır, partlamamış silah-sursatları, minları zərərsizləşdirərək çıxarırdılar. ANAMA-nın Füzuli rayonu üzrə regional təmizləmə qrupunun rəhbərinin müavini Əflatun Rzaquliyev həvəslə danışırdı.

-Birinci mərhələdə 100 min kvadratmetr ərazidə təmizlənmə işləri aparılacaq. 50 evin tikintisi üçün təmizləmə işlərinə başlamışıq. Və evlərin tam təhlükəsiz şəraitdə ətrafı, içərisi təmizlənəcək, sonra tikinti şirkətinə təhvil veriləcəkdir. Ikinci mərhələdə isə növbəti sifarişlə bütün Cocuq Mərcanlı kəndinin ərazisi mina və mərmilərdən təmizlənəcək. Ümumi ərazisi 2 milyon kvadratmetr olan kəndin yaşayış ərazisində təmizlənmə işləri başa çatdıqdan sonra əkin sahələri də təmizlənib sakinlərin ixtiyarına veriləcək.

Artıq çəkilişimizi yekunlaşdırmışdıq. Çəkdiklərimizi təcili ötürməliydik. Oradakılarla sağollaşıb geri qayıtdıq. Horadiz qəsəbəsində görüntülərimizi internet vasitəsi ilə şirkətə çatdırıb arxayınlaşdıq. Elə bil üstümüzdən ağır bir yük götürülmüşdü.

Geri qayıdanda hava qaralmışdı. Hələ yorğunluğumuz canımızdan çıxmasa da, əhval-ruhiyyəmiz yüksək idi. Bir neçə il bundan əvvəl Biləsuvarda məcburi köçkünlərin məskunlaşdığı qəsəbədə bir hadisəni xatırladım. O vaxt şəhərcikdə cəbrayıllı şəhidlərin xatirəsinə ucaldılmış kompleks abidənin açılışı idi. Açılış zamanı bir qadından müsahibə götürürdüm. Göz yaşlarına boğulmuş o, qadın Cocuq Mərcanlıdan idi. Bircə onu dedi. "Yalvarıram sizə, torpağımıza qaytarın bizi".

Bəli, Ölkə başçımız İlham Əliyevin qətiyyəti sayəsində o, qadının, onun kimi yüzlərlə Cocuq Mərcanlı sakininin arzusu reallaşır. Cocuq Mərcanlıda yenə çıraqlar yanacaq, yenə mağarlar qurulacaq, ocaqlar tüstülənəcək. Bu kənddə yanan bu çıraqlar isə işğal altında olan kənd və qəsəbələrdə, rayonlarada şölələnəcək. O gün uzaqda deyil. Çünki Cocuq Mərcanlıya dönüş Böyük Qayıdışın başlanğıcıdır.

Təyyar NƏSİRLİ.
Cəbrayıl-Cocuq Mərcanlı-Salyan.

Fevralın 24-ü Əli bəy Hüseynzadənin doğum günüdür

Görkəmli ictimai xadim, dahi mütəfəkkir



Ulu, qədim Salyan torpağı zaman-zaman dünya elminə, mədəniyyətinə, incəsənətinə, hərb tarixinə görkəmli simalar, şanlı-şöhrətli generallar bəxş etmişdir. Təkcə Azərbaycanın deyil, bütövlükdə, türk dünyasının ictimai fikir tarixində böyük rol oynamış, türkdilli dövlətlərin fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsində tarixi xidmətlər göstərmiş dahi mütəfəkkir, görkəmli ictimai xadim Əli bəy Hüseynzadə 1864-cü il fevralın 24-də Salyan şəhərində dünyaya göz açmışdır. İşığı, nuru, ziyası ilə doğma, müqəddəs Azərbaycanımıza böyük şöhrət gətirmiş, İlahinin dünyaya bəxş etdiyi qüdrətli simalardan biri olan Əli bəy Hüseynzadə atası Molla Hüseynin vəfatından sonra babası Molla Əhməd Səlyaninin himayəsində yaşamışdır. 1875-1885-ci illərdə Tiflis gimnaziyasında təhsil almışdır. Elmin zirvəsinə aparan yolda inamla addımlamaq, yüksək nəticələrə nail olmaq üçün ərəb, fars, rus dillərinin önəmli rol oynadığını çox gözəl anlayan Əli bəy bu dilləri dərindən mənimsəməkdən ötrü böyük səy göstərmiş, yorulmaq bilmədən çalışmışdır. Qeyd edək ki, babası Molla Əhməd həm tanınmış din xadimi, həm də elmli, savadlı, mütərəqqi fikirli bir şəxs idi. O, yazıçı kimi də tanınırdı. Şübhəsiz, bütün bunlar gələcəkdə türk dünyasının fəxri olacaq Əli bəyin şəxsiyyətinin formalaşmasında mühüm əhəmiyyət kəsb etmişdir. Tiflis gimnaziyasını bitirdikdən sonra Əli bəy Hüseynzadə təhsilini davam etdirmək, bilik dairəsini genişləndirmək üçün 1885-ci ildə Sankt-Peterburq Universitetinin təbiət elmləri fakültəsinə daxil olmuş, 1889-cu ildə bu ali məktəbi bitirmişdir. Universitet illərində dünya elmini və mədəniyyətini dərindən mənimsəməsi, azad fikirli, demokratik düşüncəli şəxslərlə tanışlığı onun elmi, intellektual və mənəvi cəhətdən zənginləşməsində böyük rol oynamışdır.

Türk dünyasına qırılmaz tellərlə bağlı olan və bu dünyada özünün daha sərbəst, daha azad olacağını yəqin edən açıq fikirli, iti düşüncəli Əli bəy Hüseynzadə 1889-cu ildə İstanbula getmək qərarına gəlir. Həkimlik peşəsinə olan böyük marağı, sonsuz məhəbbəti onun darülfünunun "Əsgəri tibbiyyə" fakültəsinə daxil olmasına səbəb olur. 1895-ci ildə darülfünunu dermatoloq ixtisası və yüzbaşı rütbəsi ilə bitirən Əli bəy Hüseynzadə "Heydər paşa xəstəxanası"nda həkim kimi fəaliyyət göstərməyə başlayır. Humanist peşə olan həkimlik peşəsində də özünü bacarıqlı, səriştəli, yüksək səviyyəli mütəxəssis kimi göstərən Əli bəy tibb elminə aid olan bir çox kitabların müəllifidir.

Turançılıq ideyasını ilk dəfə irəli sürən Əli bəy Hüseynzadə bütün türk xalqlarının birliyinin, həmrəyliyinin reallaşmasının onların hərtərəfli inkişaf etmələrində çox önəmli rol oynadığını qeyd etmişdir.

1902-ci ildə böyük mütəfəkkir Azərbaycana qayıtmaq qərarına gəlir. Millətin inkişafında müstəsna xidmətləri olan, onun maarifləndməsində, istedadlı azərbaycanlı gənclərin xaricdə təhsil almalarında, Bakıda müxtəlif təyinatlı obyektlərin, inzibati binaların, yaşayış evlərinin tikintisində böyük rol oynamış, xeyriyyəçiliyi ilə Azərbaycanın digər milyonçularından daha yüksəkdə dayanan Hacı Zeynalabdin Tağıyevin maliyyə köməkliyi ilə 1905-ci ildə təsis edilmiş "Həyat" qəzetində, 1906-cı ildə isə "Füyuzat" jurnalında milli-azadlıq hərəkatının ideoloji əsaslarının, türkçülük ideyalarının təbliği baxımından çoxsaylı yazılar, məqalələr çap edilirdi. Türkdilli xalqların inkişafına nail olmaq üçün onların hansı yolla getməli olduqlarını göstərən, Azərbaycan Respublikasının üçrəngli Dövlət Bayrağında əks olunan "Türkləşmək, avropalaşmaq, islamlaşmaq" düsturunun müəllifi, ictimai fikir tariximizin parlaq nümayəndəsi, şair, təbib, rəssam, tərcüməçi, jurnalist, naşir və ideyalarının gerçəkləşməsi naminə ömrünün sonunadək tükənməz enerji ilə çalışan, mübarizə aparan Əli bəy Hüseynzadənin xatirəsi həm dövlətimiz, həm də xalqımız tərəfindən daim əziz tutulur. 2014-cü ildə ölkə başçımız İlham Əliyevin Əli bəy Hüseynzadənin anadan olmasının 150 illiyi münasibətilə imzaladığı sərəncam dövlətimiz tərəfindən dahi mütəfəkkirə göstərilən böyük diqqət və qayğının bariz nümunəsidir. Möhtərəm Prezidentimizin sərəncamına uyğun olaraq respublikamızda, o cümlədən rayonumuzda silsilə tədbirlər, seminarlar, elmi-praktik konfranslar keçirilmişdir. Bütün bunların zirvəsi isə 2014-cü il fevralın 24-də rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilən möhtəşəm tədbir idi. Qeyd edək ki, bu tədbirdə Azərbaycanın görkəmli elm, mədəniyyət və incəsənət xadimləri, millət vəkilləri, dövlət və hökumət nümayəndələri, ziyalılar iştirak edirdilər.

Zaman keçəcək, illər, qərinələr, əsrlər bir-birini əvəz edəcək, lakin həyatının mənasını Vətəninə, milləti nə, türk dünyasına xidmətdə görən işıqlı, parlaq zəka sahibi Əli bəy Hüseynzadə heç vaxt unudulmayacaq, həmişə böyük hörmət və ehtiramla yad ediləcəkdir.

Digər dünya şöhrətli həmyerilərimiz kimi, idrakının gücü ilə dünyaya nur saçan dahi mütəfəkkir, elm fədaisi Əli bəy Hüseynzadə ilə biz salyanlılar da fəxr edir, qürur hissi keçiririk.

Fevralın 21-də "Qələbə" qəzetinin ilk nömrəsinin çapdan çıxmasının 93 ili tamam olur

Radio və televiziyanın hələ sovet adamlarının məişətinə daxil olmadığı keçən əsrin 20-ci illərinin əvvəllərində dövlətin və hökumətin qərar, fərman və sərəncamlarının əhaliyə operativ şəkildə çatdırılması üçün kollektiv təbliğatçı, təşviqatçı və təşkilatçı funksiyalarını icra edən qəzetin rolu inkaredilməz idi. Ona görə də Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Bakıda, eləcə də respublikanın regionlarında qəzetlərin çap olunaraq əhali arasında yayılması dövlətin siyasətinin əsas istiqamətlərindən birini təşkil edirdi. Regionlar arasında ilk qəzet Qubada nəşrə başladı. 1924-cü il fevralın 21-də isə həm Azərbaycan, həm də rus dilində çap edilən və "Qırmızı Muğan" (Krasnı Muqan) adlandırılan ikinci əyalət qəzeti məhz Salyanda işıq üzü gördü. Qeyd etməliyik ki, qəzetdə çalışan jurnalistlər özlərinin maraqlı, məzmunlu yazıları ilə oxucuların rəğbətini qazana bilmişdilər. Bütün bunların nəticəsi olaraq "Kommunist" qəzetində "Qırmızı Muğan" qəzetinin yüksək tərtibatla çıxdığı, səhifələrində rəngarəng, sanballı yazıların yer aldığı bir neçə dəfə qeyd olunmuş və Salyan mətbəəsinə şriftlər hədiyyə edilmişdi. 1930-cu ildə qəzalar ləğv edilib rayonlar yaradıldıqda qəzetlərin də sayı artmağa başladı. Həmin ildə Salyanda qəzet "Sosializm yolu" adı ilə nəşr edilirdi. 1962-1965-ci illərdə rayonlararası "Məhsul" qəzeti dərc olunurdu. 1965-ci ildən isə qəzet "Qələbə" adı ilə nəşr olunur. Keçən 93 il ərzində qəzet rayonda cərəyan edən ictimai-siyasi, tarixi, mədəni, ədəbi-bədii prosesləri yüksək səviyyədə işıqlandırmaqla üzərinə düşən vəzifələrin öhdəsindən ləyaqətlə gəlməyə çalışmışdır. Müxtəlif sahələrdə çalışaraq böyük uğurlara imza atan kollektivlərin, ayrı-ayrı şəxslərin fəaliyyəti qəzetin səhifələrində peşəkarlıqla qələmə alınmışdır.

1969-cu ilin 14 iyulunda ümummilli liderimiz, Azərbaycan xalqının böyük oğlu, dahi şəxsiyyət Heydər Əliyev Azərbaycanda hakimiyyət sükanının arxasına keçdikdən sonra respublikada, eləcə də rayonumuzda baş verən mütərəqqi dəyişikliklər "Qələbə" qəzetində də öz əksini tapmış, oxucuların diqqətinə çatdırılmışdır.

Ümummilli lider, ulu öndər Heydər Əliyevin, ölkə başçımız cənab İlham Əliyevin Salyan rayonuna ayrı-ayrı vaxtlarda etdikləri tarixi səfərlərin

səhifələrində öz əksini tapdığı qəzet həm sovet, həm də indiki müstəqillik dövründə qarşıya qoyduğu vəzifələri uğurla yerinə yetirmişdir.

Qəzet A-3 formatından A-2 formatına keçmiş, 2006-cı ildən başlayaraq qəzetin çapı Bakıda ofset üsulu ilə həyata keçirilir.

2014-cü ildə "Qələbə"nin 90 illiyinin böyük təntənə ilə keçirilməsi qəzetin hər bir əməkdaşını daha fəal çalışmağa ruhlandırmışdır.

Qəzet kollektivi bundan sonra da möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi, xüsusi diqqəti sayəsində respublikamızda və rayonumuzda olan önəmli hadisələri işıqlandırmaqla, qəzetin əhalinin müxtəlif xəbər və informasiyalarla ətraflı, dolğun məlumatlandırılması işini, maarifləndirici missiyasını yüksək səviyyədə həyata keçirəcəkdir.

50 yaşlı kooperator

Təbrik edirik!

Haqqında söhbət açmaq istədiyim müsahibim Elşad Seyfulla oğlu İsmayılovu müasir Salyan ictimaiyyətinə ətraflı tanıtmağa ehtiyac yoxdur. O, 50 ilə yaxın rayon statistika idarəsində rəhbər vəzifədə çalışmaqla dövlətə qüsursuz xidmət etmiş Seyfulla müəllimin oğludur. Dünyaya 11 fevral 1967-ci ildə gəlib. Rayonumuzun qabaqcıl təhsil ocaqlarından biri olan Nizami Gəncəvi adına 2 saylı orta məktəbin məzunudur. Dərs əlaçısı olub, ictimai işlərə maraq göstərib. Məktəbin çox məşhur riyaziyyat və digər dəqiq elmlər üzrə müəllimlərinin dərs üslubu bir çox gənclər kimi Elşadın da bu sahəyə marağının artmasına səbəb olub.

1984-cü ildə orta məktəbi yüksək qiymətlərlə başa vuran E.İsmayılov elə həmin il də dövrünün ən məşhur ali məktəblərindən biri olan Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun ticarətin iqtisadiyyatı fakültəsinin əyani şöbəsinə daxil olur. I kursdan sonra fakültənin gənc oğlanları ilə birlikdə hərbi xidmətə yollanır. Moskva şəhəri ətrafında keçən birillik hərbi xidmət başa çatdıqdan sonra Elşad təhsilini yenidən ali məktəb auditoriyasında davam etdirir, gərgin, məhsuldar və maraqlı təhsil illəri sanki bir an kimi keçir. Xatirələrdə yaşayan o illər indi çox uzaqda qalıb.

1990-cı ildə ali təhsilini müvəffəqiyyətlə başa vuran gənc mütəxəssis istehsalata qədəm qoyur. O dövrün gəncləri kimi Elşadda Vətən sevgisi, vətənpərvərlik duyğularının daha da inkişaf etməsində 20 Yanvar hadisələrinin müstəsna rolu olur. İşə məsuliyyətlə yanaşır, vəzifəsinin ağırlığından qorxmur. Təcrübəli kadrlardan soruşur, öyrənir. Əmək kitabçasına yazılan müəssisə - "Rayon istehlak cəmiyyəti" onun üçün ilk və indiyə kimi sadiq qaldığı müəssisə olur. Gənc əmtəəşünas çox tezliklə böyük kooperasiya təşkilatçısı olan Böyükağa Mirzəyevin diqqətini çəkir və ona daha məsul iş - "Azərittifaq"ın nəzdində olan Salyan tədarük birliyinin direktoru vəzifəsi etibar edilir.

Rayon tədarük birliyinin fəaliyyətini dövrünün insanları yaxşı xatırlayır. Kənd təsərrüfatı və ərzaq məhsullarının tədarükü ilə məşğul olan müəssisənin kənd adamlarının rifah halının yaxşılaşdırılmasında öz yeri olub. Müsahibim xatırlayır ki, tədarükçülərimiz il ərzində 10 min ton nar, 5 min ton pambıq, 3 min ton kartof və digər kənd təsərrüfatı məhsulları hasilə gətirirdilər.

İllər beləcə davam etdi. Elşad rayonun gənc və perspektivli kooperasiya işçisi kimi peşə həmkarları arasında dərin hörmət və nüfuz qazandı. Adı "Azərittifaq" sistemində hörmətlə çəkildi. Müxtəlif vaxtlarda Fəxri fərmanlara və "Əlaçı kooperator" döş nişanına layiq görüldü. İşi, əməyi başqalarına nümunə göstərildi. 2010-cu ildən isə ilk dəfə kövrək addımlarla qalxdığı rayon kooperativlər cəmiyyətinin ikimərtəbəli idarə binasına bu cəmiyyətin sədri kimi qədəm qoymağa başladı. Cəmiyyətin payçıları ona yüksək etimad göstərdilər. Yeni şəraitdə, bazar iqtisadiyyatı dövründə gənc mütəxəssisə etibar etdilər.

Müsahibim bildirir ki, hazırda ölkəmizdə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları uğurla icra olunmaqdadır. Bu günlərdə Bakı şəhərində üçüncü Dövlət Proqramının növbəti ilinin yekunlarına həsr olunmuş konfrans keçirildi. Ölkə başçısı digər istiqamətlərlə yanaşı, kənd təsərrüfatının iqtisadiyyatının müasir dövrün tələblərinə uyğun qurulması tapşırığını vermişdir. Yeni vəzifələrdən irəli gələn proqramları icra etmək üçün rayonumuzda da ehtiyat mənbələri çoxdur. "Azərittifaq" xətti ilə Salyan üzümü, nar, heyva, xurma və digər məhsulların tədarükünə başlanılması nəzərdə tutulub. Bu, böyük və insanlarımızın sosial vəziyyətinin yaxşılaşdırılmasına xidmət edən bir işdir, yaxşı gələcəyi vardır.

İş və xidmət qayğıları ilə yanaşı, müsahibimizin şəxsi həyatı ilə də maraqlanırıq. Öyrənirik ki, həyat yoldaşı ali təhsilli göz həkimi Gülarə xanımla birlikdə o, cəmiyyətimiz üçün 2 oğul və 1 qız tərbiyə etmişdir. Oğlu Elvin Azərbaycan Milli Aviasiya Akademiyasının məzunudur, hazırda hərbi xidmətdədir. Çox çəkməyəcək ki, salyanlı şahin mülki təyyarələrin sükanı arxasında xalqına xidmət edəcəkdir. İkinci oğlu Elşən Dənizçilik Akademiyasının, qızı Nazilə isə Xarici Dillər Universitetinin tələbələridirlər. Bəli, ata-ananın öz övladları ilə fəxr etmələri üçün əsas var. Biz də bu arzu və diləklərə qoşuluruq.

Müsahibim haqqında yəqin ki, kiçik qəzet məqaləsində ətraflı danışmaq mümkün deyildir. Lakin sonda bir məqama da yer ayırmağı vacib bilirik. Bu da E.İsmayılovun rayonun ictimai-siyasi həyatında Referendum və Milli Məclisə seçkilərdə bir vətəndaş, Yeni Azərbaycan Partiyasının üzvü kimi fəal mövqe tutması, dövlətimiz və dövlətçiliyimiz üçün üzərinə düşən işin öhdəsindən layiqincə gəlməsidir. Onun bu keyfiyyətləri iki çağırış Milli Məclisdə Salyanı layiqincə təmsil edən hörmətli millət vəkilimiz Əliağa Hüseynovun da nəzərindən qaçmayıb. Elşadın 50 illik yubileyi bərədə o, ən əziz dostu, sirdaşı kimi danışdı. Ona ən yaxşı arzularını bildirdi. Dedi ki, Elşad bundan sonra da ölkəmizin, rayonumuzun iqtisadiyyatının inkişaf etdirilməsində var qüvvə ilə çalışacaqdır. Ona cansağlığı və övlad toyu arzu edirəm.

Biz də bu arzulara qoşuluruq.

Rüstəm MƏLİKOV,
Ali Media mükafatı laureatı.

Övladlığa götürmə və bununla bağlı vəzifələr haqqında

Hüquqi mövzuda

İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsini özünün ali məqsədi elan etmiş Azərbaycan Respublikasında son illər uşaq hüquqlarının müdafiəsi ilə bağlı fundamental qanunvericilik bazası yaradılmışdır. Ailə, mülki, inzibati, cinayət qanunvericiliyinin uşaq hüquqlarının təminini nəzərdə tutan normaları inkişaf etdirilmiş, "Uşaq hüquqları haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikasının Qanunları qəbul edilmiş, Azərbaycan Respublikası "Uşaq hüquqları haqqında", "Ölkələrarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında" Konvensiyalara, "Uşaq hüquqları haqqında" BMT Konvensiyasının "Uşaq alverinə, uşaq fahişəliyinə və uşaq pornoqrafiyasına dair" Fakültativ Protokoluna və digər müvafiq aktlara qoşulmuşdur.

Ailə qanunvericiliyinə və uşaq hüquqları ilə bağlı beynəlxalq hüquq normalarına uyğun olaraq, uşaqlardan ayrı yaşayan valideyn onlarla ünsiyyətdə olmaq, uşaqların tərbiyə və təhsili ilə bağlı məsələlərin həll edilməsində iştirak etmək hüququna malikdir. Uşaqla birlikdə yaşayan valideyn uşağın fiziki, psixi sağlamlığına, onun əxlaqi inkişafına zərər yetirməyən digər valideynlə uşağın ünsiyyətinə mane olmamalıdır.

Məlum olduğu kimi, övladlığa götürmə barədə müraciət övladlığa götürülən uşağın yaşadığı (olduğu) yer üzrə məhkəməsinə verilir.

Məhkəmə uşağın övladlığa götürülməsi barədə ərizələrin məhkəmə aidiyyatı məsələsini həll edərkən ona diqqət yetirir ki, on dörd yaşınadək yetkinlik yaşına çatmayanların və ya qəyyumluq altında olan uşaqların övladlığa götürülməsi barədə ərizələr onların valideynlərinin və ya qəyyumlarının yaşayış yeri üzrə məhkəmələrə, on dörd yaşından on səkkiz yaşınadək olan yetkinlik yaşına çatmayanların övladlığa götürülməsi barədə ərizələr onların faktiki yaşadıqları yer üzrə məhkəmələrə, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi barədə ərizələr onların müvəqqəti olduqları (valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələr, yataqxanalar, uşaq evləri) rayonun məhkəmələrinə verilsin.

Övladlığa götürmə barədə ərizəyə Mülki Prosessual Məcəllənin müvafiq maddələrində nəzərdə tutulan sənədlərin əlavə edilməsi zəruridir.

On yaşına çatmış uşaq ailədə onun maraqlarına toxunan istənilən məsələnin həlli zamanı öz fikrini bildirmək, həmçinin araşdırmalarının gedişində dinlənilmək hüququna malikdir. Onların maraqlarına zidd olan hallar istisna olmaqla, 10 yaşına çatmış uşaqların fikri mütləq nəzərə alınmalıdır. Övladlığa götürmə ilə bağlı on yaşına çatmış uşağın razılığının nəzərə alınması aşağıdakı hallarda məcburidir: uşaq övladlığa götürüldükdə; uşağın soyadı, ata adı, habelə öz adı dəyişdirildikdə; övladlığa götürənlərin doğum qeydi kitabında övladlığa götürülənlərin valideynləri kimi yazıldıqda; övladlığa götürmənin ləğv edilməsi ilə əlaqədar uşağın adı və soyadı dəyişdirildikdə.

Uşağın övladlığa götürülməsi zamanı hər bir halda uşağın yaşadığı (olduğu) yerin qəyyumluq və himayəçilik orqanının övladlığa götürmənin əsaslılığı və onun uşağın mənafeyinə xidmət edib-etməməsi barədə əsaslandırılmış rəyi tələb olunmalıdır.

Nəzərə alınmalıdır ki, övladlığa götürülən uşağın sağlamlıq vəziyyəti həkimin və ya tibb müəssisəsinin arayışı ilə deyil, tibbi rəy ilə müəyyən edilməlidir.

Ailə Məcəlləsində uşağı övladlığa götürmək hüququna malik olmayan şəxslərin dairəsi konkret olaraq göstərilmiş və qanun birmənalı olaraq həmin şəxslərə uşağın övladlığa verilməsini istisna etmişdir Məlum olduğu kimi, aralarında nikah olmayan şəxslər birlikdə eyni uşağı övladlığa götürə bilməzlər.

Uşağın valideynləri varsa, uşaq övladlığa götürülərkən onların razılığının alınması zəruridir. Bu zaman nəzərə almaq lazımdır ki, əgər valideyn uşaq anadan olandan sonra ondan imtina etmiş və övladlığa götürülməsinə razılığını bildirmişsə və bu barədə onun notariat qaydasında təsdiq olunmuş ərizəsi varsa, övladlığa götürmə barədə onun razılığının yenidən alınmasına ehtiyac qalmır.

Valideynin məhdud fəaliyyət qabiliyyətli hesab olunması Azərbaycan Respublikası Mülki Məcəlləsinin 32-ci maddəsinə müvafiq olaraq onu yalnız əmlak hüquqlarına münasibətdə məhdudlaşdırdığına, həmçinin Ailə Məcəlləsinin 68-ci maddəsinə əsasən valideynlik hüquqlarının məhdudlaşdırılması şəxsi valideynlik hüququndan məhrum etmədiyinə görə, bu cür məhdudiyyət valideynin razılığı olmadan uşağının övladlığa götürülməsinə əsas vermir. Valideynin altı aydan daha artıq müddətdə uşaqla birgə yaşamamasının, qəyyumluq və himayə orqanının xəbərdarlığına baxmayaraq, onun tərbiyəsində və ya saxlanılmasında iştirak etməkdən boyun qaçırmasının, uşağa valideynlik diqqəti və qayğısı göstərməməsinin səbəbləri bu zaman araşdırılmalıdır.

Nikahda olan şəxsin uşağın övladlığa götürülməsi barədə ərizəsinə baxılarkən nəzərə almaq lazımdır ki, övladlığa götürülmə yalnız uşağı övladlığa götürmək arzusunda olan şəxsin arvadının (ərinin) razılığı ilə mümkündür.

Ərin (arvadın) arvadının (ərinin) uşağın övladlığa götürülməsinə razılığı yazılı formada tərtib edilməli və təqdim olunan ərizəyə əlavə olunmalıdır.

On yaşına çatmış uşağın övladlığa götürülməsinə razılığı zəruridir. Bu cür razılıq qəyyumluq və himayə orqanı tərəfindən müəyyən edilir və məhkəməyə təqdim olunan rəydə, yaxud ayrıca sənəddə əks etdirilir.

Uşaqları övladlığa götürməyi arzu edən şəxsin (şəxslərin) uçota götürülmək üçün təqdim etdikləri məlumatlar bir il müddətində etibarlıdır.

Hər bir uşaq təkrarolunmaz varlıqdır. Vəzifə ondan ibarət olmalıdır ki, uşaq üçün onun maraqlarını maksimum təmin edən ailə seçilsin; onun xarakterinin, psixoloji yönümünün səciyyəvi cəhətləri nəzərə alınsın; uşağın ailədə yerləşdirilməsinin məqsədəmüvafiqliyi müəyyən edilsin. Uşağın maraqlarını (mənafeyini) dar mənada, məsələn, maddi və mənzil şəraiti ilə təmin olunması ilə məhdudlaşdırmaq olmaz. Əsas məqsəd uşağın daimi olaraq ailənin xeyirxah təsirini, valideyn sevgisi, qayğısı, nəvazişini hiss etməsi, hər bir uşağın mədəni, hərtərəfli inkişaf etmiş, təhsilli, fəal ictimai həyata hazırlanmış şəkildə böyüməsinin təmin olunmasıdır.

Aliment ödənilən uşaq övladlığa götürüldükdə, məhkəmə qaydasında tutulan alimentin ödənilməsinə xitam verilir.

Ailə Məcəlləsinə əsasən övladlığa götürənin təqsirli davranışı olmadan da övladlığa götürmə ləğv oluna bilər. Belə ki, övladlığa götürənin davranışından asılı olan və ya olmayan hallara görə uşağın normal inkişafı və tərbiyəsi üçün zəruri olan münasibətlər yaranmadıqda (məsələn, övladlığa götürənin və ya götürülənin şəxsi keyfiyyətləri ilə əlaqədar onlar arasında qarşılıqlı anlaşmanın yaranmaması nəticəsində övladlığa götürənin uşağın gözündə nüfuza malik olmaması və ya uşağın özünü övladlığa götürənin ailə üzvü hiss etməməsi və s.) övladlığa götürmə ləğv edilə bilər.

Ailə Məcəlləsinə əsasən övladlığa götürmənin ləğv olunmasını övladlığa götürənlərin özləri, uşağın valideynləri, övladlığa götürülən 14 yaşına çatmış uşaq və yerli icra hakimiyyətinin qəyyumluq və himayəçilik orqanı tələb edə bilər.

Övladlığa götürmənin ləğv olunması barədə işə məhkəmədə iddia icraatı qaydasında qəyyumluq və himayə orqanının və Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin iştirakı ilə baxılır.

Yetkinlik yaşına çatmamış vətəndaşın ölkədən getməsinə razılığın verilməsi ilə bağlı müraciətlərə baxılarkən "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikasının Qanununun 2-ci maddəsinə əsasən əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülmüş Azərbaycan Respublikasının vətəndaşı olan uşaq ölkədən yalnız onun övladlığa götürülməsi haqqında məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi və övladlığa götürmə haqqında şəhadətnamə təqdim etməklə qanunvericiliklə müəyyən edilmiş qaydada gedə bilməsi nəzərə alınır.

Uşağın övladlığa götürülməsi və övladlığa götürmənin ləğv olunması barədə işlərə baxılarkən tərəflərin, vəzifəli və digər şəxslərin hərəkətlərində Azərbaycan Respublikası Cinayət Məcəlləsində nəzərdə tutulmuş cinayətlərin əlamətlərini aşkar edilərsə, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 265-ci maddəsinə müvafiq olaraq bu barədə xüsusi qərardad çıxarmaqla prokurora xəbər verilməlidir.

Uşaqlardan ayrı yaşayan valideynlərə uşaqlarla ünsiyyət üçün elə vaxt və müddət müəyyən edilməlidir ki, o, qanunla nəzərdə tutulan valideynlik hüquqlarını real və maneəsiz həyat keçirə bilsin və uşaqla ünsiyyətdə olmaq istəyən valideynin iddiasının formal təmin edilməsi, uşaqla ünsiyyət üçün simvolik və əlverişsiz müddət müəyyən edilməsi yolverilməzdir.

Uşaqların öz valideynləri və digər qohumları ilə ünsiyyətdə olmasının formaları (yazışma, şəxsi görüşlər, telefon danışıqları və s.) uşağın yaşından, onun və valideyninin yaşayış yerindən, ailədə münaqişələrinin olub-olmamasından və sair konkret hallardan asılı olaraq müəyyən edilir.

Uşaqla ünsiyyətdə olmaq onun sağlamlığına zərər vurduqda valideynin, yaxud uşaq himayəsinə verilmiş digər şəxsin, yaxud da icra məmurunun ərizəsinə əsasən uşağın müəyyən yaş həddinə çatmasına kimi görüş məhdudlaşdırılmalı və yaxud qadağan olunmalıdır.

Əbil Mirzəyev,
Salyan rayon prokurorunun köməkçisi,
ədliyyə müşaviri.

Fevralın 20-si Əliağa Kürçaylının doğum günüdür

Poeziyası ilə qəlbləri riqqətə gətirən sənətkar

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, şair, dramaturq və tərcüməçi Əliağa Kürçaylı 1928-ci il fevralın 20-də Salyan rayonunun Kürqaraqaşlı kəndində anadan olmuşdur.

Əliağa Kürçaylı Azərbaycan poeziyası aləmində öz yeri, öz yolu, orijinal dəst-xətti olan ən qüdrətli sənətkarlarımızdan biridir. İstedadının, sənətinin gücü ilə adını Azərbaycan ədəbiyyatı tarixinə əbədi olaraq həkk etmiş parlaq, təkrarolunmaz söz ustası Əliağa Kürçaylının həyat və yaradıcılıq yoluna qısaca olaraq nəzər salaq.

Orta məktəbin IX sinfindən çıxan Əliağa 1944-1946-cı illərdə Zaqafqaziya Dəmir Yolu İdarəsinin Salyan şöbəsində mühasib kimi əmək fəaliyyətinə başlayıb. Bakı Dəmiryol Texnikumunda birillik mühasibat kursunu bitirdikdən sonra 1946-1947-ci illərdə Salyan Dövlət Dram Teatrında baş mühasib vəzifəsində çalışıb. Bakıda tələbə-gənclər məktəbini bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsinə daxil olan gənc şairin "Sənin gözlərin" adlı ilk şeiri 1946-cı ildə "Azərbaycan gəncləri" qəzetində çap olunub. Əliağa Kürçaylı "Kommunist" qəzeti redaksiyasında ədəbi işçi, "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında şöbə müdiri, "Azərbaycan gəncləri" qəzetində şöbə müdiri, "Azərbaycan" jurnalında məsul katib, Azərbaycan Yazıçılar İttifaqında nəşriyyat şöbəsinin müdiri, Azərbaycan Dövlət Nəşriyyatında redaktor kimi müxtəlif vəzifələrdə çalışmış, 1978-ci ildən ömrünün sonuna kimi "Yazıçı" nəşriyyatının baş redaktoru olmuşdur.

Görkəmli şair ən müxtəlif mövzulara müraciət etmiş, böyük uğurlar qazanmışdır. Azərbaycanın böyük şairi Səməd Vurğun Əliağa Kürçaylının poetik istedadını yüksək dəyərləndirərək bildirmişdir ki, bu gəncin böyük gələcəyi vardır, mən onun şeirlərini oxuduqda öz gəncliyimi xatırlayıram. Qüdrətli söz ustası gördüklərini, müşahidə etdiklərini sənətkarlıqla qələmə almış, gözəl, sanballı poeziya nümunələri yaratmağa müvəffəq olmuşdur. Şair üzləşdiyi, rastlaşdığı hadisələri özünün bədii təfəkkür süzgəcindən keçirərək hamının başa düşəcəyi, anlaşıqlı, sadə dildə yüksək bədii dəyərə malik poeziya nümunələri ərsəyə gətirməklə möhtəşəm Azərbaycan poeziyası dünyasında öz yolunu müəyyənləşdirməyə nail olmuşdur. Şairin böyüklüyü, qüdrəti ondadır ki, sadə dildə yazılmış şeirlərində dərin məntiqə söykənən fikirlər, düşüncələr yer tapmış olsun. Əliağa Kürçaylı məhz bu qəbildən olan şairlərdən, sənətkarlardan idi:

Dünya ovcumdadır nəğmələriylə,
Dünya ovcumdadır qəm-kədəriylə,
Mənim ovcumdadır Xirosima da,
Buhenvald harayı qulağımdadır.-

deyən şair dünyanın sevincini öz sevinci, qəm-kədərini öz qəm-kədəri bildiyini, bəşəri duyğularla, bəşəri hisslərlə yaşadığını bəyan edir.

Vətənə, torpağa həsr olunmuş şeirlər Əliağa Kürçaylı yaradıcılığının əsas istiqamətlərindən birini təşkil edir. Görkəmli şair Vətənini böyük məhəbbətlə sevdiyini, harada olursa-olsun, daim ona can atdığını özünün qüdrətli qələminin gücü ilə açıb göstərir:

Deyirlər adətdir hind torpağında,
Dağ gövdəli fillər ölüm çağında
Gedib can tapşırar Dekan dağında,
Bəlkə fil adəti götürmüşəm mən.

İstedadlı şairin yaradıcılığında lirik mövzuda yazılmış şeirlər üstünlük təşkil edir:

Gözlərində yenə giley oxundu,
Mən nə dedim, ürəyinə toxundu.
Bu adətdir, aralıqda söz olar,
Gəl barışaq, niyə küsdün, niyə yar?!

Ürəyimdə xatirələr oyandı,
Ötən günlər göz önündə dayandı,
Bir olardı söhbətimiz, sözümüz,
Bir gülərdi ürəyimiz, gözümüz.

Əliağa Kürçaylının poetik baxımdan yüksək dəyərə malik, ciddi və sanballı poeziya nümunəsi kimi oxucunu riqqətə gətirən, onda kövrək, həzin duyğular oyadan "İstərəm" şeiri də sənətkarlıq baxımından çox yüksək dəyərə malikdir:

Yaşayım yüz il də, milyon da, min də,
Bitəcək həyatım, həmin o gündə
Sənin gözlərinin dərinliyində
Boğulmaq istərəm, batmaq istərəm.

Böyük sənətkarın şeirlərinin axıcılığı, musiqililiyi bir çox görkəmli bəstəkarların onun yaradıcılığına müraciət etməsinə səbəb olub. İllərlə müxtəlif müğənnilər tərəfindən şairin sözlərinə bəstələnmiş bir-birindən gözəl mahnılar ifa olunmuş, bu gün də həmin mahnılar öz populyarlığını itirməmişdir. Şairin "Təki sən səslə məni", "Gedək üzü küləyə", "Belə ola həmişə" və bu qəbildən çoxsaylı şeirlərinə yazılan mahnılar xalqımızın böyük həvəslə dinlədiyi və yüksək zövq aldığı musiqi nömrələridir:

Sevgilim, tut əlimdən,
Gedək üzü küləyə.
Rahatlıq gəzmirəm mən,
Gedək üzü küləyə.

Görkəmli sənətkar dramaturgiya və tərcümə sahəsindəki fəaliyyəti ilə də ədəbiyyatımıza böyük töhfələr vermişdir. O, Sergey Yeseninin bir çox şeir və poemalarını, Aliqyeri Dantenin "İlahi" komediyasını ustalıqla doğma dilimizə tərcümə etmişdir.

Böyük şair, dramaturq, tərcüməçi Əliağa Kürçaylının adı dövlətimiz tərəfindən əbədiləşdirilmişdir. Salyan şəhərindəki küçələrdən biri, 7 saylı texniki fənlər təmayüllü məktəb-lisey onun adını daşımaqla, liseyin qarşısında unudulmaz sənətkarın büstü qoyulmuşdur.

Özünün möhtəşəm poeziyası ilə qəlbləri riqqətə gətirən, könülləri ovsunlayan qüdrətli şair xalqımızın sevimlisi olaraq daim ürəklərdə yaşayacaqdır.

Əzizağa MƏMMƏDLİ.

Nəsillərə nümunə olacaq bəxtəvər ömür

Vətənpərvərlik mövzusunda olan yazıların, poeziya nümunələrinin dəyərini hər bir kəs çox yaxşı anlayır. Müharibə şəraitində yaşadığımız indiki dövrdə Vətənə sevgi, torpağa məhəbbət hissləri aşılayan məqalələr aktual əhəmiyyət kəsb etməklə, zamanla həmahəng səsləşir. Qəzetimizin səhifələrində mütəmadi olaraq vətənpərvərlik mövzusunda yazılar dərc olunur. Ənənəyə sadiq qalaraq bir daha bu mövzuya qayıtmaq istəyirik. Qarabağ uğrunda gedən döyüşlərdə şəhidlik mərtəbəsində qərar tutmuş oğullardan biri Əlimərdan Ədalət oğlu Əliyevin nəsillərə örnək olacaq döyüş yolu barədə söz açmaq istəyirik.

İgid həmyerlimiz 1969-cu il fevralın 21-də Salyan rayonunun Pratman Gəncəli kəndində dünyaya göz açıb. Bu kənddə səkkizinci sinfi, Parça Xalac kəndində isə orta təhsili başa vurub.

Mənfur düşmən torpaqlarımıza təcavüz edəndə Əlimərdan da digər vətənpərvər soydaşlarımız kimi silaha sarılaraq ön cəbhəyə yola düşdü. Altı ay idi ki, müqəddəs torpaqlarımızı erməni faşistlərindən qoruyurdu. Silahdaşları ilə birgə işğalçılara qan udduran Əlimərdan qorxu-hürkü nə olduğunu bilmirdi. Tezliklə qələbə çalaraq düşmənə öz yerini göstərmək arzusu, istəyi ilə alışıb-yanan Əlimərdan bu amal, bu istək naminə döyüşdən-döyüşə atılırdı.

Erməni faşistləri cəbhə xəttində dönüş yaratmağa nail olmuşdular. Ağdərə bölgəsində vətənpərvər oğullarımız tərəfindən azad olunmuş kəndlərimiz yenidən düşmən əsarəti altına düşməyə başlamışdı. Mehmanə kəndi uğrunda qanlı savaş gedirdi. Əlimərdan döyüşçü dostları ilə birlikdə üç tərəfdən mühasirəyə düşmüşdü. Qorxmaz həmyerlimiz və onunla mühasirədə olanlar əlbəyaxa döyüşə başladılar. Qəfil açılan namərd düşmən gülləsi Əlimərdanı başından ağır yaraladı. Və vətənpərvər həmyerlimiz şəhid olaraq uğrunda döyüşdüyü ana torpağın isti qoynunda qərar tutdu.

Mənalı ömür yolu keçən Əlimərdan 24 yaşında dünyaya əlvida dedi. Ömrü qısa olsa da, xalqın sonsuz, tükənməz hörmətini, ehtiramını qazandı. Ömrün əlçatmaz, ünyetməz zirvəsində əbədi məskən salan həmyerlimizə ruhun şad olsun, deyirik. Gənc nəsil 24 illik ömür yolunun səhifələrini bir-bir vərəqlədikcə sənə oxşamağa, sənintək yaşamağa çalışacaq., Vətənə, torpağa sənin kimi bağlanacaq, Azərbaycanımızın Bayrağını hər şeydən uca tutacaqdır. Ona görə də nəsillərə nümunə belə şanlı ömür yaşadığına görə sənə öldu demirik, bəxtəvər oldu, deyirik!

Gün o gün olsun, Vətənimizin işğal altında olan torpaqlarının da bəxtəvər günü gəlsin! Düşmən əsarətində olan yurd yerlərimizin hər birində müqəddəs üçrəngli Bayrağımızın vüqarla, əzəmətlə dalğalanacağı bəxtəvər gün! İnşallah, tezliklə yetişərik o bəxtəvər günə, o Qələbə gününə!

Su kanalları qazılır, lildən təmizlənir

İqtisadiyyatın qeyri-neft sektorunda böyük çəkiyə malik olan kənd təsərrüfatının sürətli inkişafı mövcud torpaqların səmərəli istifadəsindən çox asılıdır. Məhz buna görə də dövlət əhalinin ərzaq məhsullarına olan tələbatının əsasən daxili imkanlar hesabına ödənilməsi üçün torpaqlardan daha səmərəli istifadə olunmasını bir vəzifə olaraq qarşıya qoymuşdur. Qeyd etmək lazımdır ki, bu sahədə qəbul olunmuş bir sıra sərəncam və qanunvericilik aktlarının müsbət nəticələri artıq özünü göstərməkdədir.

Rayonumuzda da bu istiqamətdə uğurlu addımlar atılır, əvvəllər istifadəsiz qalmış torpaq sahələrinin əkin dövriyyəsinə daxil edilməsi hesabına həm məhsul istehsalında, həm də əhalinin məşğulluğunun təmin edilməsində müsbət irəliləyişlərə nail olunub. Hazırda sahədə işlər davam etdirilir. İstifadəsiz torpaqların əkin dövriyyəsinə qatılması, onların suvarılması üçün mövcud kanallar qazılaraq dərinləşdirilir, yeni kanallar çəkilir.

Pambıqçılığı inkişaf etdirmək məqsədilə rayonumuzun daha çox Qaraçala qəsəbəsi ərazisində istifadəsiz qalmış torpaqlardan istifadə olunacaq. Bunun üçün qəsəbə ərazisindəki köhnə su kanallarının dərinləşdirilməsi işindən başlanılıb. Uzun illər idi ki, həmin su kanallarında əsaslı təmir işlər aparılmadığından suvarma zamanı sakinlər də bir qədər çətinliklərlə qarşılaşmalı olurdular.

Artıq əhalini narahat edən bu çətinliklər aradan qaldırılır. Qaraçala ərazisindəki F-4 kanalı həm dərinləşdirilir, həm də genişləndirilir. Əgər əvvəllər sözügedən kanaldan saniyədə 1 kubmetr su ötürülürdüsə, bundan sonra buradan saniyədə 6 kubmetr su ötürmək mümkün olacaq. Paralel olaraq 13,7 kilometr uzunluğunda sol sahil magistral su kanalı da lildən təmizlənilir. Bunun üçün əraziyə kifayət qədər texnika cəlb olunub. Qısa müddətdə F-4 su kanalında 2 kilometrdən çox dərinləşdirmə və genişləndirmə işləri aparılıb, sol sahil magistral kanalının 3 kilometri isə lildən təmizlənib. Bundan əlavə 1,5 kilometr yeni su kanalının da qazılması nəzərdə tutulub.

Layihə çərçivəsində həmin kanalları su ilə təmin etmək məqsədi ilə biri Kür sahilində, digər ikisi isə başqa ərazidə olmaqla 3 yeni su nasos stansiyasının tikilməsi də nəzərdə tutulub. Bütün bu işlər başa çatdıqdan sonra əkin dövriyyəsinə daxil ediləcək 5 min hektar pambıq sahəsinin suvarılmasında heç bir problem olmayacaq.

Ümumiyyətlə, rayonumuzda mövcud torpaq sahələrindən maksimum istifadə olunması üçün məqsədyönlü tədbirlər həyata keçirilir. Xüsusi ilə əvvəllər əkilməyən və boş qalan torpaqların əkin dövriyyəsinə daxil edilməsinə nəzarət gücləndirilir

2017-ci il İslam Həmrəyliyi ilidir

Əmin-amanlıq, inkişaf islam dünyasının birliyindən çox asılıdır

Məlum olduğu kimi, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin sərəncamı ilə 2017-ci il Azərbaycanda İslam Həmrəyliyi ili elan edilmişdir. Bu, ölkə başçımız tərəfindən 2016-cı ildə elan edilmiş "Multikulturalizm ili"nin davamı olaraq islam dünyasının birliyinə xidmət edən çox əhəmiyyətli bir addımdır.

Həmişə Azərbaycanda müxtəlif xalqların və dinlərin nümayəndələri qarşılıqlı anlaşma şəraitində yaşamış və respublikamızda heç vaxt ayrı-seçkilik hallarına yol verilməmişdir. Məhz cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan uğurlu xarici siyasət sayəsində Azərbaycan müsəlman ölkələri ilə dostluq, qardaşlıq münasibətləri qurmağa müvəffəq olmuşdur. Bu sərəncamın imzalanması dini radikalizmə qarşı mübarizədə qüvvələrin birləşdirilməsi baxımından xüsusi önəm daşıyır.

Bu gün cənab İlham Əliyev tərəfindən həyata keçirilən siyasət xalqın milli-mənəvi dəyərlərinin tərkib hissəsi olan dinimizə dövlət qayğısının bariz nümunəsidir. Yeni ibadət ocaqlarının inşası, təmirə ehtiyacı olanların yenidən bərpası istiqamətində mühüm işlər görülmüşdür. Əgər SSRİ-nin mövcud olduğu dövrdə ölkəmizdə 17 məscid fəaliyyət göstərirdisə, bu gün onların sayı 2 mini ötüb.

Azərbaycanda yaşayan insanların azad etiqad etmələri, öz dini ayinlərini heç bir maneə, çətinlik olmadan icra etmələri üçün hər cür şərait yaradılmışdır. Ölkəmizdə demək olar ki, hər bir kənddə məscid vardır. Respublikamızda din xadimlərinin fəaliyyətləri üçün dövlət tərəfindən hər cür dəstək göstərilir.

Bu il IV İslam Həmrəyliyi Oyunlarının Azərbaycanda keçirilməsini təkcə idman tədbiri kimi dəyərləndirmək düzgün olmazdı, bu, həm də siyasi, ictimai və mədəni hadisədir. Azərbaycan daim islam ölkələrinə əməli dəstək göstərir, hər hansı müsəlman ölkəsində baş verən böhranların aradan qaldırılmasına yardım edir. Ölkəmiz öz əməli işləri ilə hər zaman sübut edib ki, islam dünyasının problemləri ilə yaxından maraqlanır, müsəlman aləminin birliyinə çalışır. Respublikamız bütün dünyaya nümunə göstərir ki, müsəlman ölkələri bir-biri ilə münaqişə edən ölkələr deyil, əksinə, inkişaf etmiş, bir-biri ilə həmrəy olan ölkələrdir. Azərbaycan keçmişlə müasirliyi özündə birləşdirir, Şərqlə Qərb arasında körpü rolunu oynayır. Dünyada ilk dəfə olaraq məhz Azərbaycanda şiə və sünni müsəlmanları Qafqazda ən böyük məscid sayılan Heydər məscidində bir yerdə vəhdət namazı qılmışlar.

Dünyanın ən böyük məzhəbinin başçısı, 1 milyard 300 milyondan artıq insanın mənəvi lideri Roma Papası Fransiskin Bakıya səfərə gəlməsi, Azərbaycanı faydalı əməkdaşlığın etibarlı ünvanı kimi tanıdığını söyləməsi ölkəmizin islam dəyərlərinə sadiq qalması ilə yanaşı, həm də dünyaya tolerant, multikultural dövlət olaraq nümunə göstərildiyini bir daha təsdiq edir.

Azərbaycan islam ölkələri içərisində müasir inkişaf xətti ilə seçilir. Müsəlman dünyasında baş verən ziddiyyətlər, savaşlar, terrorçu qruplaşmaların dövlətləri ələ keçirmələri fonunda Azərbaycan islam dünyasının ən müasir, ictimai-siyasi baxımdan sabit ölkəsinə çevrilmişdir. Ölkəmizdə təriqətlərarası sülh etibarlı şəkildə qorunur. Əlbəttə, digər müsəlman dövlətlərinin düşdükləri acınacaqlı vəziyyətin Azərbaycanda da baş verməsi üçün xaricdən çoxlu cəhdlər edilmişdir. Terrorçuluğun, savaşın, məzhəblər arasında münaqişənin ölkəmizdə də yaradılması üçün xarici qüvvələr tərəfindən bir çox planlar cızılmaqdadır. Lakin respublika Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında aparılan uğurlu xarici siyasət nəticəsində bütün bu mürtəce planların qarşısı vaxtında alınır. Necə deyərlər, müsəlman ölkələrində münaqişə ocaqları yaratmaqla, bu ölkələrin yeraltı, yerüstü sərvətlərinə sahib olmaq istəyən xarici qüvvələr Azərbaycanda bu arzularına, niyyətlərinə çata bilmirlər.

"Çalışacağıq ki, islam aləmini birləşdirək. Bizi bölmək, aramıza nifaq salmaq, bir-birimizə qarşı qoymaq istəyənlər öz hədəflərinə çatmamalıdırlar",-deyən cənab İlham Əliyev hər hansı maneəyə, çətinliyə baxmayaraq islam ölkələrinin birliyinə, həmrəyliyinə nail olmağın vacibliyini bir daha diqqətə çatdırır.

Bəli, əmin-amanlıq, hər bir sahədə inkişaf, sabitlik məhz bu birlikdən, həmrəylikdən keçir.

Ə. Məmmədli.

Yol hərəkəti təhlükəsizliyinə qarşı diqqət artırılır

Yol hərəkəti təhlükəsizliyini təmin etmək məqsədi ilə əməkdaşlarımız tərəfindən mütəmadi olaraq profilaktik tədbirlər görülür. Yol hərəkəti qaydalarını pozan sürücülər qanunlara müvafiq cəzalandırılır, onlar haqqında lazımi ölçülər götürülür. Lakin buna baxmayaraq, hələ də yol hərəkəti qaydalarını pozan sürücülərə rast gəlmək mümkündür. Bunun nəticəsidir ki, yollarda qəza baş verir, ailələr gözüyaşlı qalırlar.

Məsələn, ötən ilin noyabrın 11-də Ələt-Astara magistral yolunun 46-cı kilometrliyində yolu keçmək istəyən iki piyadadan birinin ölümü, digərinin isə ağır yaralanması ilə nəticələnən yol qəzası baş vermiş, sürücü isə aradan çıxmışdı. Sonradan həmin sürücünün şəxsiyyəti müəyyənləşdirilərək istintaqa cəlb edilmişdir.

Qeyd edim ki, cinayətkarlığa, o cümlədən narkomaniyaya qarşı RPŞ-nin əməkdaşları ilə birgə lazımi tədbirlər görür, əhali arasında maarifləndirmə işləri aparırıq. "Təmiz hava" aylığı çərçivəsində isə ETSN 3 saylı ərazi ekologiya təbii sərvətlər şöbəsinin əməkdaşları ilə bilikdə 8 dəfə reydlər keçirmiş, reyd zamanı 200-dən çox nəqliyyat vasitəsi saxlanılaraq yoxlanılmış, 49 nəqliyyat vasitəsindən atmosfer havasına çirkləndirici maddələr ixrac olunduğu üçün həmin nəqliyyat vasitələrinin sürücülərinə qarşı müvafiq inzibati protokollar tərtib olunmuşdur.

Ötən il xidməti ərazimizdə 17 yol nəqliyyat hadisəsi baş vermiş, nəticədə 3 nəfər dünyasını dəyişmiş, 21 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri almışdır. Bundan başqa keçən il 98 nəfər sürücü texniki baxışdan keçmədiyi üçün onlar barəsində protokol tərtib edilmişdir. Ümumilikdə isə 2016-cı ildə əməkdaşlarımız tərəfindən 3.833 nəfər sürücüyə inzibati xəta haqqında protokollar tərtib olunmuşdur. Bundan sonra da xidməti ərazimizdə yol hərəkəti təhlükəsizliyini təmin etmək məqsədi ilə bütün qüvvələrimizi səfərbərliyə alacaq, əlimizdən gələni əsirgəməyəcəyik.

Raqib DƏMİROV,
Salyan RPŞ-nin DYP bölməsinin təbliğat və təşviqat məsələləri üzrə inspektoru.

Nənənin təbriki

Əzizimiz Hüseyn!

Səni dünyaya gəlişinin 1 ili münasibətilə təbrik edirəm. Sənə ən böyük arzum odur ki, həmişə öz ayaqların üstündə durmağı bacarasan. Bütün ömrün boyu illərin təbəssümlü olsun. Ata-anana xeyirli övlad, nəsil-nəcabətinə ucalıq gətirəsən. Cəmiyyətə gərəkli insan və yeri bilinən ziyalılardan olasan. Ulu baban Məmmədhüseyn həkimin, baban Hüseynağanın arzu və istəklərini sənin ləyaqətlə yerinə yetirməyini o Böyük Yaradandan diləyirəm. Amin!

Səkinəxanım ƏLİYEVA.



Vətəndaşların nəzərinə!

Daxili işlər naziri general-polkovnik Ramil Usubov tərəfindən cari ilin fevral ayının 25-də Şirvan şəhərində bölgə üzrə vətəndaşların qəbulunun keçirilməsi nəzərdə tutulmuşdur.

Vətəndaşlar Daxili İşlər Orqanları əməkdaşlarının və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə Salyan rayon polis şöbəsində qəbula yazıla bilərlər.

Mirzağa QAFAROV,
Salyan RPŞ-nin şəxsi heyətlə iş üzrə rəis köməkçisi, polis polkovnik-leytenantı.

Baş redaktor: R.S.Məlikov

Müəlliflə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər. Faktlara görə müəlliflər cavabdehdir.

Ünvanımız: AZ 5200
Salyan, Heydər Əliyev prospekti 92
Telefonlarımız:
(021)255-23-68, 255-07-50, 255-29-26
E.mail:qelebe@box.az

Qeydiyyat N478.
Tiraj: 750. Sifariş: 5-8
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnərək Bakının "B-Z" mətbəəsində çap edilmişdir

Kapital Bankın
Salyan filialında hesab
№AZ17AİİB33070019444300222143
VÖEN:7000080071

Məsul növbətçi: L.H. Nəsirova.